**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**NƏRMİNƏ TEYYUB qızı MÜSEYİBOVA**

# TALİBAN HƏRƏKATININ REGİONAL TƏHLÜKƏSİZLİYƏ TƏSİRİ

**HSM-060213-Beynəlxalq münasibətlər tarixi və nəzəriyyəsi**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**D İ S S E R T A S İ Y A**

Elmi rəhbər: S.S.Həmidov

Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent

**BAKI - 2022**

# MÜNDƏRİCAT

**GİRİŞ** ..................... **3**

**I FƏSİL. TALİBAN HƏRƏKATININ MEYDANA GƏLMƏSİ VƏ REGİONAL TƏHLÜKƏSİZLİK AMİLİNƏ ÇEVRİLMƏSİ** ..................... **10**

1.1. Taliban hərəkatının meydana gəlməsinin geosiyasi, sosial-iqtisadi və siyasi səbəbləri ..................... 10

1.2. Taliblərin Əfqanıstanda hakimiyyətə gəlməsi və regional və qlobal təhlükəsizliyi təhdid etməsi ..................... 25

1.3. Taliblərin sosial-psixoloji portreti ..................... 33

**II FƏSİL. MÜASİR MƏRHƏLƏDƏ TALİBLƏRİN REGİONAL TƏHLÜKƏSİZLİYƏ TƏSİR** ..................... **44**

2.1. 11 sentyabrdan sonra ABŞ rəhbərliyi altında beynəlxalq koalisiyasının taliblərə qarşı müharibəsi ..................... 45

2.2. Müasir mərhələdə hərəkatın Əfqanıstanda yenidən güclənməsi və regional təhlükəsizlik ..................... 50

2.3. Taliban hərəkatının siyasi uzunömürlülüyünün səbəbləri ..................... 63

**NƏTİCƏ** ..................... **72**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI** ..................... **75**

# GİRİŞ

**Mövzunun aktuallığı:** Əfqanıstan Avrasiya qitəsinin mühüm ticarət yolları və nəqliyyat dəhlizlərinin qovşağında yerləşir və yeraltı sərvətlərlə zəngin bir ölkə hesab edilir. Dəmir filizi, mis, qızıl, nadir torpaq metalları, neft və hətta smartfon və elektrik avtomobillərində istifadə olunan batareyaların istehsalı üçün istifadə olunan litium ehtiyatları ilə zəngindir. ABŞ Geoloji Xidməti (USGS) tərəfindən Əfqanıstan ərazisinin 30%-ində aparılmış tədqiqatlar göstərir ki. Əfqanıstanda təxmin edilən yeraltı sərvətlərin ümumi dəyəri 1-3 trilyon dollar olaraq qiymətləndirilir.

Buna görə Taliban hərəkatının Əfqanıstanda hakimiyyəti ələ almasından sonra ABŞ və digər Qərb dövlətlərinin öz diplomatlarını və vətəndaşlarını Əfqanıstandan təcili çıxardığı bir vaxtda Çin, Rusiya, Pakistan, İran və Türkiyə kimi aktorlar burada qalaraq bu ölkənin qiymətli faydalı qazıntılarının istismar edilməsi fürsətindən yararlanmağa çalışırlar.

Əfqanıstana investisiya yatırılması üçün ölkəsə sülh və sabitliyin, bu investisiyaların qorunmasını təmin edəcək legitim hökumətin olması əsas məsələlərdən biridir. Uzun illər dünya dövlətlərinin terror təşkilatı kimi tanıyaraq rəsmi əlaqələrdən imtina etdiyi Taliban hərəkatının ABŞ qoşunlarının ölkədən çıxarılmasından sonra prezident Əfşər Qani hökumətini devirməsi və bütün ölkə ərazisində nəzarəti ələ alaraq hökumət qurması, yəni Əfqanıstanda radikal dini qruplaşmanın hakimiyyətə gəlməsi regional təhlükəsizlik məsələlərini yenidən gündəmə gətirmişdir. Əfqanıstan tarixən müharibələr meydanı olmuş, davamlı vətəndaş müharibələrinin dağıdıcı təsirinə məruz qalmışdır. Əfqanıstan Hindistan, Mərkəzi Asiya və İran arasında yerləşən qədim ticarət yolları üzərində mühüm bir coğrafi mövqeyə malikdir. "Asiyanın qovşağı", "Asiyanın İsveçrəsi" adlanan Əfqanıstanda Taliban hərəkatının hakimiyyətə gəlməsi isə Əfqanıstanın müasir tarixində olduqca böyük rol oynamışdır.

Öz tarixinin və əlverişli coğrafi mövqeyinin qurbanı olmuş Əfqanıstan son 40 ildə xalqı və ölkə ərazini idarə etmək iqtidarında olmayan siyasi və ideoloji qüvvələrin təsirinə məruz qalmışdır. Müasir dövrdə də Əfqanıstan bir - biri ilə mübarizə aparan regional aktorların yeni rəqabət meydanına çevrilmişdir. Bu baxımdan Əfqanıstanda baş verən proseslərin təhlili Yaxın Şərq regionunun müasir beynəlxalq münasibətlərində gedən prosesləri dərk etmək baxımından böyük əhəmiyyət daşıyır.

ABŞ qoşunlarının Əfqanıstandan çıxarılmasına qərar verildikdən sonra 2021-ci ilin avqust ayında prezident sarayının ələ keçirilməsi ilə bütün ölkə ərazisində öz hakimiyyətini elan edən Taliban hərəkatı dünya ictimaiyyətinin əsas müzakirə mövzusuna çevrilmişdir. Taliban hərəkatı kənardan aldığı maddi və mənəvi dəstək, həmçinin Pakistandan, bir sıra ərəb ölkələrindən və Mərkəzi Asiya dövlətlərindən gələn könüllülər hesabına öz gücünü daha da artırmış.

Əfqanıstanda hakimiyyəti ələ almaqla ona bitişik olan regionların və region dövlətlərinin təhlükəsizliyinə böyük təhdid kəsb etməyə başlamışdır. Bu aspektdə Taliban hərəkatının müsair dövrdə, xüsusən də 2020-ci ildən günümüzədək regional təhlükəsizliyə təsiri məsələsi böyük aktuallıq kəsb edir.

**Problemin öyrənilmə dərəcəsi.** Əfqanıstanda baş verən proseslər daim tədqiqatçıların diqət mərkəzində olan və maraqla araşdırılan bir məsələdir və burada baş verən yeni proseslər müxtəlif aspektlərdən tədqiq olunaraq yeni nəticələr ortaya çıxarmışdır. Müasir dövrdə Əfqanıstanda baş verən proseslər, xüsusən də SSRİ qoşunlarının Əfqanıstandan çıxarılması, soyuq müharibənin bitməsi və ölkədə baş verən hakimiyyət dəyişiklikləri, regional və qlobal aktorların burada maraqları haqqında istər Azərbaycan, istərsə də xarici dillərdə çoxsaylı ədəbiyyat və məbnələr mövcuddur. Dissertasiya işinin mövzusu tədqiq olunan zaman Azərbaycan dilində Məsiağa Məhəmmədinin "Əfqanıstan: Sovet işğalından Amerika müdaxiləsinə" (2017) adlı kitabından, Atamoğlan Məmmədlinin "Taliban hakimiyyəti illərində İran-Əfqanıstan əlaqələri" məqaləsindən,

Mətin Məmmədlinin "Əfqanıstan: bitməyən müharibələr, böhranlar ölkəsi"

(2021) adlı məqaləsi və müxtəlif internet resursları istifadə olunmuşdur.

Xarici alimlərdən Белокреницкий В.Я., Сикоев Р.Р. "Движение Талибан и перспективы Афганистана и Пакистана" (2014), Сушенцов А.А. "Очерки политики США в региональных конфликтах 2000-х годов" (2013), Лалетин Ю.П. "Глобальное измерение регионального конфликта (на примере Афганистана)" (2008), Уильям Мейли "Афганистан с точки зрения истории и географии" (2011), Крыжко Е.В. Щевелев С.С. "Из истории движения «Талибан» в Афганистане" (2007), Ж.С. Сыздыкова "Талибы: новый имидж со старым содержанием" (2021), Арчаков М.К. "Природа и корни идеологических установок движения «Талибан» (2018) və s. kitab və məqalələrdə dissertasiya mövzusuna aid araşdırmalar aparılmış, müxtəlif nəticələr əldə edilmişdir.

Bundan başqa Felix Kuehn "Taliban history of war and peace in Afghanistan" (2018) , Furqan Khan "The Afghan Conundrum Taliban's Takeover and the Way Forward" (2021), Andrew Latham "Out of Afghanistan: A Realist View" (2021), Jason A. M iller "The Fall of Afghanistan" (2021) və başqa dərslik və monoqrafiyalarında bu barədə mövzulara toxunulmuş, məqalələr, elmi araşdırmalar təhlilə cəlb olunmuşdur.

Adları qeyd edilən tədqiqat əsərlərinə ümumi olaraq nəzər yetirdikdə belə bir nəticəyə gəlinir ki, 1996-cı ildə Əfqanıstanda Taliban hərəkatının hakimiyyətə gəlməsi, ölkənin tədricən radikal islamçı cərəyanların, xüsusən də "Əl-Qaidə" terror təşkilatının yuvasına çevrilməsi, 2001-ci il 11 sentyabr ayına ABŞ-da törədilən terror aktı və ABŞ və NATO müttəfiq qüvvələrinin Əfqanıstana hərbi müdaxiləsi burada baş verən hadisələri lokal xarakterli münaqişə yox, beynəlxalq səviyyəli mürəkkəb proseslərin başlanğıc nöqtəsidir. Çünki, Əfqanıstanda baş verən proseslər və burada yürüdülən beynəlxalq siyasətin davamı kimi öz əksini müxtəlif formalarda İraqda, Yaxın Şərq və Şimali Afrikada, xüsusən də Suriyada tapdı. Aparılan ədəbiyyat təhlilindən bu nəticə çıxır ki, Əfqanıstan Yaxın və Orta Şərqi, Mərkəzi və Cənubi Asiyanı əhatə edən geosiyasi proseslərin tərkib

hissəsidir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Əfqanıstanda Taliban hakimiyyətinin regional təhlükəsizliyə təsirinin araşdırılaraq ortaya çıxarılması tədqiqat işinin əsas məqsədidir Taliban hərəkatının hakimiyyətə qayıdışı və bunun regional təhlükəsizlik məsələsinə təsirinin araşdırılaraq ortaya çıxarılması tədqiqat işinin əsas məqsədidir.

Tədqiqatın məqsədinə görə aşağıdakı vəzifələr yerinə yetirilməlidir:

- Taliban hərəkatının meydana gəlməsinin geosiyasi, sosial-iqtisadi və siyasi səbəblərini araşdırmaq;
- hərəkatın Əfqanıstanda hakimiyyətə gəlməsindən sonra regional və qlobal təhlükəsizliyə yaratdığı təhdidləri müəyyənləşdirmək;
- taliblərin sosial-psixoloji portretini tədqiq etmək;
- 11 sentyabrdan sonra ABŞ rəhbərliyi altında beynəlxalq koalisiyasının Taliban hərəkatına qarşı müharibəsini təhlil etmək;
- ABŞ qoşunlarının ölkədən çıxrılması haqqında qərarın qəbulundan sonra taliblərin Əfqanıstanda yenidən güclənməsi və regional təhlükəsizliyə təsirini araşdırmaq;
- Taliban hərakatının siyasi uzunömürlülüyünün səbəblərini öyrənmək.

**Tədqiqat işinin nəzəri metodoloji bazası.** Əfqanıstanda Taliblərin hakimiyyətini öyrənən aparıcı yerli və xarici alimlərin əsərlərində irəli sürülən ümumiləşmiş fikirlər və əldə edilən nəticələr tədqiqat işinin metodoloji əsasını təşkil etmişdir. Dissertasiya işi yazılarkən tarixi-təsviri metod, analitik-proqnostik metod, kontent və ivent analiz, müqayisəli təhlil metodu, həmçinin situasiyanın təhlili metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi ilk növbədə onun strukturu ilə şərtlənir. Regional təhlükəsizliyi təhdid etməsinə rəğmən Taliblərin siyasi uzunömürlüyünün araşdırılması elmi və siyasi baxımdan yeni yanaşmadır. Taliban hərəkatının hakimiyyəti dövründə ABŞ, Rusiya və Avropa İttifaqının öz milli maraqlarından çıxış edərək yürütdüyü siyasətin xüsusiyyətləri

müəyyənləşdirilmiş və kompleks şəkildə tədqiq edilmişdir. Habelə Taliban hərəkatının müxtəlif illərdə hakimiyyətə gəlməsinin müqayisəli təhlili aparılmış, 1978-ci ildən bəri hər dövr üzrə beynəlxalq aktorların Əfqanıstanla bağlı siyasəti öyrənilmişdir. Taliban hərəkatının hakimiyyətə gələrək regional təhlükəsizliyə təsirini artırmasının elmi tədqiqi bu aspektdən Azərbaycanda ilk dəfə magistr səviyyəsində araşdırılır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.**

Dissertasiya işində müxtəlif dillərdəki materialların öyrənilməsi və nəticədə Azərbaycan dilində irəli sürülən nəzəri müddəalar mövcud təhlillərə əsaslanan tədqiqat üçün elmi əsas ola bilər.

Dissertasiyanın praktik əhəmiyyətinə gəldikdə, əldə olunan nəticələr ali təhsil müəssisələrində "Beynəlxalq münasibətlər" və "Beynəlxalq münasibətlər tarixi" ixtisasları üzrə magistr səviyyəsində təhsil alan magistrantlar, həmçinin bu istiqamətdə tədqiqat aparan doktorantlar üçün həm nəzəri əsas, həmçinin praktik mənbə rolunu oynaya bilər.

Tədqiqat işi "Beynəlxalq münasibətlər" və "Beynəlxalq münasibətlər tarixi" ixtisası üzrə bakalavr və magistratura dərəcəsi üzrə ixtisaslaşan tələbələrə tədris prosesi üçün məqalə yazmağa, seminara hazırlaşmağa, elmi məlumat almağa kömək ola bilər.

**İşin aprobasiyası.** Bu tədqiqat işi Azərbaycan Dillər Universitetinin Beynəlxalq Münasibətlər kafedrasında yerinə yetirilmiş və müzakirələrin nəticəsində müdafiəyə məsləhət görülmüşdür. Tədqiqat işinin mövzusu ilə bağlı magistrantın aşağıda qeyd olunan tezis və məqaləsi çap olunmuşdur:

1. Müseyibova N. Azərbaycanın inkişafında Heydər Əliyev dövrü// "**Heydər Əliyev və Şanlı Azərbaycan"** adlı Respublika tələbə şagird elmi konfransı.
2. Müseyibova N. Taliban hərəkatının meydana gəlməsi, uğursuzluğu və Əfqanıstan dövlətinə təsirləri // Gənc Tədqiqatçıların Elmi əsərləri

**Dissertasiyanın quruluşu və əhatə dairəsi.** Dissertasiya işi girişdən, iki fəsil, altı yarımbaşlıq, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiya işinin Giriş hissəsində tədqiqat mövzusunun aktuallığı və əsaslandırılması, məqsədi, vəzifələri, tədqiqat obyektinin seçilməsi, tədqiqat üsulu, işin elmi yeniliyi, praktik və nəzəri əhəmiyyəti əsaslandırılır, tədqiqat materialının mənbələri, işin əsas elmi müddəalarının aprobasiyası və tədqiqat işinin strukturu haqqında informasiya verilir.

I fəsil "Taliban hərəkatının meydana gəlməsi və regional təhlükəsizlik amilinə çevrilməsi" adlanır. Bu fəsil üç yarımfəsildən təşkil olunmuşdur. Birinci yarımfəsildə Taliban hərəkatının meydana gəlməsinin geosiyasi, sosial-iqtisadi və siyasi səbəbləri araşdırılır. İkinci yarımfəsil "Taliblərin Əfqanıstanda hakimiyyətə gəlməsi və regional və qlobal təhlükəsizliyi təhdid etməsi" adlanır. Burada Taliban hərəkatının 1996-cı ildə Əfqanıstanda hakimiyyətə gəlməsi və onun qlobal təhlükəsizliyə yaratdığı təhdid tədqiqat obyektinə çevrilir. "Taliblərin sosial-psixoloji portreti" adlanan üçüncü yarımfəsildə bu hərəkatın özünəməxsus siyasəti və əfqan cəmiyyətinə qoyduğu qaydalar araşdırılır.

"Müasir mərhələdə taliblərin regional təhlükəsizliyə təsiri" adlanan ikinci fəsildə 2001-ci ildən sonra günümüzədək Taliban hərəkatının Əfqanıstanda yürütdüyü siyasət, hakimiyyətə gəldikdən sonra yenidən regional təhlükəsizliyə təhdid yaratması kimi mühüm elmi nəzəri məsələlər şərh edilir. Bu fəsil üç yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə 11 sentyabrdan sonra ABŞ rəhbərliyi altında beynəlxalq koalisiyasının taliblərə qarşı müharibəsi araşdırılır, "Müasir mərhələdə hərəkatın Əfqanıstanda yenidən güclənməsi və regional təhlükəsizlik" adlı ikinci yarımfəsildə ABŞ qoşunlarının Əfqanıstandan çıxarılmasından sonra baş verən proseslər tədqi edilir, "Taliban hərakatının siyasi uzunömürlülüyünün səbəbləri" adlı üçüncü yarımfəsildə isə 1996, 2001-ci ildən sonra və 2021-ci illərdə hakimiyyətə gələn taliblərin son 25 il ərzində siyasi qüvvə kimi güclü olmasının səbəbləri araşdırılır.

Dissertasiyanın nəticə hissəsində isə Taliban hərəkatının regional

təhlükəsizlik üçün yaratdığı təhdidlər haqqında araşdırmaların ümumi yekunu öz əskini tapmışdır.

# I FƏSİL. TALİBAN HƏRƏKATININ MEYDANA GƏLMƏSİ VƏ REGİONAL TƏHLÜKƏSİZLİK AMİLİNƏ ÇEVRİLMƏSİ

## 1.1. Taliban hərəkatının meydana gəlməsinin geosiyasi, sosial-iqtisadi və siyasi səbəbləri

Avrasiyanın ticarət yollarının və nəqliyyat dəhlizlərinin qovşağında yerləşən və dünyanın neft və qaz kimi faydalı qazıntı ehtiyatları ilə ən zəngin regionlarından olan Mərkəzi Asiya ilə qonşu olan Əfqanıstan tarixən böyük müharibələr meydanı olmuşdur. Burada Taliban hərəkatının hakimiyyətə gəlməsi isə Əfqanıstanın müasir tarixində olduqca böyük rol oynamışdır.

Müasir Əfqanıstan ərazisi orta əsrlərin sonuna qədər miqrasiyalar, hərbi müdaxilələr, mədəniyyətlər və dinlərin yayılma ərazisi olmuşdur. Tarixən dünyanın heç bir ölkəsində bu qədər çoxsaylı xalq yaşamamış, bir ərazi bu qədər çox hökmdarın əlinə keçməmişdir.

Keçmiş mədrəsə tələbələrindən ibarət "Təhrike-Taliban" - Taliban hərəkatının meydana gəlməsinin geosiyasi, sosial - iqtisadi və siyasi səbəbləri vardır. Bu hərəkatın meydana gəlməsinin geosiyasi səbəblərindən biri Əfqanıstanın coğrafi mövqeyi ilə əlaqədardır. Belə ki, Əfqanıstanın geosiyasi mövqeyini unikal edən əsas amillərdən biri onun Hindistan, Mərkəzi Asiya və İran arasında olan qədim ticarət yolları üzərində yerləşməsidir. Çindən başlayan və Mərkəzi Asiyada şaxələnmiş Böyük İpək Yolunun qollarından biri müasir Əfqanıstan ərazisindən keçərək Hindistana uzanırdı. Bütün bu sadalanan geosiyasi faktorlar Əfqanıstanın adını "Asiyanın qovşağı" etmişdir.

1937-ci ildə fransız diplomatı Rene Dollot Əfqanıstanı "Asiyanın İsveçrəsi" adlandırmışdır. Pakistan yazıçısı Məhəmməd İqbalın qeyd etdiyi kimi, Asiya su və çiçəklərdən ibarət bir cisimdir, Əfqanıstan isə onun ürəyidir. Əgər Əfqanıstanda qeyri-sabitlik varsa, Asiyada da qeyri-sabitlik vardır. Əgər Əfqanıstanda sülh

hökm sürürsə, deməli, Asiyada da sülh hökm sürür [83].

Asiyanın mərkəzi hissəsində yerləşdiyi mövqeyinə görə Əfqanıstan “Asiyanın Qəlbi” adlanır və nəzəri cəhətdən Makkinderin “Heartland” nəzəriyyəsini təcəssüm etdirir. Mərkəzi Asiya terminini elmə gətirən alman alimi Aleksandr Humboldt XIX əsrin ortalarında öz xəritəsində Əfqanıstan da daxil olmaqla regionun dağ silsilələrini, iqlimini və quruluşunu ətraflı təsvir etmişdir. Öz doktorluq dissertasiyasında amerikalı hərbi ekspert Cozef Makkarti qeyd edirdi ki, Əfqanıstana təkcə Mərkəzi Asiyanın konkret bir hissəsi kimi deyil, həm də regionun ürəyi kimi baxmaq lazımdır [87].

Həmçinin, Əfqanıstan Mərkəzi Asiya regionunu ən yaxın dəniz limanlarına aparan yol və kəşf edilməmiş bazardır. Bu ölkə Mərkəzi Asiya ölkələrinin dünya ticarətinə tam inteqrasiyasını təmin etmək və bu regionun iqtisadi asılılığını aradan qaldırmaq iqtidarındadır.

Əsrlər boyu xalqlar Əfqanıstan ərazisindən keçərək Mərkəzi Asiyadan Hindistan, İran, Bəlucistana köç etmişlər. Xalqların bu cür hərəkəti Əfqanıstanda əhalinin milli tərkibinin müxtəlifliyinə səbəb olmuşdur. Bundan başqa, İslam dünyasının periferiyasında yer alan Əfqanıstan üç dünya sivilizasiyası - Hindistan, Rusiya və Çin sivilizasiyaları ilə həmsərhəddir [37].

Son dövlərdə Əfqanıstanda böyük dövlətlərin rəqabət aparmasını, geosiyasi maraqlarının toqquşmasını və onların Taliban hərəkatının hakimiyyətini dəstəkləməsini nəzərə alaraq qeyd etmək olar ki, bu ölkə geosiyasi baxımdan böyük əhəmiyyətə malikdir:

1. *Coğrafi* baxımdan Əfqanıstan Avrasiyanın mərkəzində yerləşir. Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərlə coğrafi yaxınlığa malik olan Əfqanıstan Çin, Pakistan və Hindistan kimi nüvə silahına malik ölkələrlə, İran kimi nüvə proqramı olan dövlətlərlə əhatə olunmuşdur. Qeyd edək ki, Əfqanıstanın ümumi dövlət sərhədinin təxminən 40 faizi Türkmənistan, Özbəkistan və Tacikistan ilədir;

2. *Geoiqtisadi* nöqteyi-nəzərdən Əfqanıstan qlobal neft, qaz, uran və digər strateji resurs ehtiyatlarına malik regionların kəsişmə nöqtəsində yerləşir. Bu amil

mahiyyət etibarilə Əfqanıstanı nəqliyyat və ticarət dəhlizlərinin kəsişmə nöqtəsinə çevirir ki, bu da ABŞ və Rusiya, eləcə də Çin və Hindistan kimi aparıcı güc mərkəzlərinin Əfqanıstanda böyük geoiqtisadi maraqlarına yol açır;

3. Hərbi-strateji baxımdan Əfqanıstan regional və beynəlxalq təhlükəsizliyin mühüm bir hissəsidir. Bu ölkənin təhlükəsizlik və hərbi-strateji məsələləri NATO, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı, Şanxay Əməkdaşlıq Təşkilatı və MDB kimi nüfuzlu təşkilatların gündəliyində mühüm yer tutan məsələlər sırasındadır.

Son illər ərzində Avrasiya nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Əfqanıstan Mərkəzi Asiya ölkələri üçün Pakistandan Hind okeanı limanlarına gedən ən qısa yol kimi böyük əhəmiyyət kəsb edir. Dənizə çıxışı olmayan beş Mərkəzi Asiya respublikası Əfqanıstan, İran və Pakistan ilə regional çərçivədə əməkdaşlıq etməklə öz iqtisadi-ticarət əlaqələrinin inkişafı üçün yeni imkanlar açmış olurlar. Mərkəzi Asiya respublikaları Əfqanıstan ərazisindən keçməklə Ərəb dənizinin isti sularına və Fars körfəzinə çıxışı olan nəqliyyat dəhlizlərinin yaradılmasına böyük maraq göstərirlər [47].

Taliban hərəkatının mənşəyi Əfqanıstan-Pakistan-Hindistan bölgəsindəki Diobend mədrəsələri və ölkədəki mədrəsə mədəniyyətinə əsaslanır.

Ölkədə Taliban hərəkatının infrastrukturunu təşkil edən siyasi düşüncə Əfqanıstanın ilk siyasi qurumlarından biri olan və eyni zamanda 1999-cu ildə ilk İslam siyasi partiyası olan Huddamu'l Furkan (Quran xidmətçiləri) adlı hərəkata gedib çıxır.

Din alimlərindən və müəllimlərdən ibarət olan bu hərəkatda nəqşibəndilik ənənəsinə yaxın olan alimlər də mühüm yer tuturdu. Quruluşun lideri Məhəmməd İsmayıl Mücəddid idi, o, həm də Əfqanıstanın ən qədim İslam təhsili müəssisəsi olan Qəznidə yerləşən Nuru'l Medaris-in rəhbəri idi.

“Nida-i Hak” adlı qəzeti də nəşr edən struktur, lideri 1979-cu ildə kommunist idarəsi tərəfindən həbs olunduqdan sonra silahlı mübarizəyə başlayıb və Hərəkat-ı İnkılab-ı İslam adını alıb. Daha sonra Talibanı təşkil edəcək Molla

Məhəmməd Ömər kimi bir çox adlar Məhəmməd Nəbi Muhammedinin başçılıq etdiyi bu qruplaşmada rəhbər vəzifələrdə çalışıblar.

Əfqanıstanın cənub bölgəsində ən nüfuzlu qrup olan struktur 1989-1994-cü illərdə vətəndaş müharibəsi prosesindən yayınmış, daha sonra 1994-cü ildə keçmiş üzvlərinin təşəbbüsü ilə bu strukturdan Taliban çıxıb.

Talibanı formalaşdıran dini ənənə və anlayış 1700-cü illərin əvvəllərinə gedib çıxır. Məlumdur ki, Hənəfi Diobendi ənənəsindən qaynaqlanan bu anlayışın əsasını məşhur İslam alimi Şah Vəliyullah Dəhləvi (1703-1762) təşkil etmişdir.

Xüsusilə Hindistan-Pakistan-Əfqanıstan bölgəsində geniş yayılmış bu dini ənənə öz əsasını Hənəfi fiqhinin sistemli şəkildə tədris olunduğu Diobend mədrəsələrindən götürür. Mədrəsələr əsası İslam alimi Nizamuddin Sihalivi tərəfindən qoyulmuş “Ders-i Nizami” sistemi əsasında qurulub. Bu sistemin tədris proqramına əsasən təfsir, hafiz, ərəb nahiv, fars, urdu, islam tarixi, fiqh və şəriət daxildir. Diobend mədrəsələri Hənəfi Maturidi yanaşmasına əsaslanır. Diobendis bölgədəki sufi və sələfi təfəkküründən “bidət” kimi gördükləri bəzi əməllərə də qarşı çıxırlar.

Diobendi mədrəsələri 1866-cı ildə Hindistanın Uttar Pradeş əyalətinin Diobend şəhərində "Daru'l Ulum Diobend"in yaradılması ilə rəsmən fəaliyyətə başlayıb. Zamanla Diobend mədrəsələri bütün bölgəyə yayıldı.

Talibanın əsasını təşkil edən mədrəsə Pakistanın Pişəvər şəhərinin şərqindəki Akora Hattak qəsəbəsindəki Daru'l Ulum Hakkaniye mədrəsəsidir.

Əfqanıstanda yerli Diobendi mədrəsələrində təhsil almış bir çox insan ali təhsil almaq üçün bu mədrəsəyə qoşulmuşdur.

Bu mədrəsə 1947-ci ildə Mövlana Samiu'l Haqin atası Mövlana Əbdül Haq tərəfindən qurulmuşdur. Bu mədrəsədə Molla Ömər, Cəlaləddin Hakkani, Molla Axtar Məhəmməd Mənsur kimi bir çox adlar təhsil alıb.

Əksəriyyət Diobendi ənənəsindən olsa da, Taliban daxilində müxtəlif İslam məktəblərindən bir neçə nəfər də var. Bunlar arasında ən diqqət çəkəni ölkənin şərqindəki Kunar və Nuristan kimi bölgələrdə 50 ilə yaxın tarixə malik sələfi

anlayışına malik din alimləridir. Bu strukturlar 1980-ci illərdə Sovet İttifaqına qarşı döyüşüb və zamanla Talibana qoşulmağa başlayıb.

Ümumiyyətlə, Taliban hərəkatının ideoloji əsasları dörd fundamental ideyadan ibarətdir [76, s.17]:

1) "ümumi imansızlıq" ilə mübarizə;

2) milli İslam dövlətinin yaradılması;

3) cihad (silahlı mübarizə);

4) mühafizəkar İslam inqilabının təşkili.

Amerikalı tədqiqatçıların fikrincə, Taliban hərəkatı Əfqanıstanın cənub bölgəsində "ölkəni anarxiya, xaos və korrupsiyadan azad etmək, habelə mənəvi pozğunluq və imansızlıqla mübarizə" məqsədilə yaranıb [67].

Əfqanıstan regionun bütün ticarət və nəqliyyat əlaqələrinin mərkəzi olmaq üçün geniş imkanlara malikdir. İran və Pakistandakı dəniz limanları sayəsində Əfqanıstandan keçən beynəlxalq nəqliyyat dəhlizləri təkcə regional deyil, həm də beynəlxalq ticarətin təşviqinə töhfə verə bilər ki, bu da region ölkələrinin iqtisadiyyatının inkişafına təkan verə bilər. Əfqanıstanın geosiyasi mövqeyinin üstünlüklərinin düzgün dərk edilməsi və istifadə olunması avtomobil yolları şəbəkəsinin inkişafı, dəmir yollarının, elektrik xətlərinin və boru kəmərlərinin çəkilməsini nəzərdə tutur. Bu kommunikasiyalar Əfqanıstanı əhatə edən ölkələri birləşdirmək və bununla da Avrasiyada ticarət və nəqliyyatın inkişafına zəmin yarada bilər.

Taliban hərəkatının meydana gəlməsinin sosial-iqtisadi səbəbləri də vardır. Belə ki, öz tarixinin və əlverişli coğrafi mövqeyinin qurbanı olmuş Əfqanıstan tarixən idarəçilik baxımından zəif dövlət olmuşdur. Mərkəzi hakimiyyətin mövcud olmasına baxmayaraq, bu hakimiyyət həmişə passiv fəaliyyət göstərmişdir. Hökumətin öz imkanlarını birləşdirməsini müşahidə etmək olar. Ancaq əksər hallarda hökumət ilə məmurlar arasında məsafə saxlanılırdı [64].

Taliban hərəkatı Nəcibullahın hakimiyyətdən devrilməsindən sonra sadə əfqan xalqının həyatına yoxsulluqdan başqa bir şey gətirməyən xırda mücahid

liderlərinin düzgün olmayan idarəçiliyinə qarşı düşmənçilik edirdi. Hərəkatın üzvlərinin əksər hissəsi Pakistandakı qaçqın düşərgələrində böyümüş və əsasənmədrəsələrdə təhsil almışdılar. Onlar şəhər həyatına, təhsilə, mədəniyyətə və texnologiyaya şübhə və düşmənçiliklə yanaşırdılar. Hərəkatın liderləri islam ilahiyyatçıları yox, yarısavadlı kənd mollaları idi. Taliban hərəkatı xalqın rəğbətini qazanmaq üçün qadın və gəncləri təcavüzə və təhqirə məruz qoyan günahkar şəxsləri cəzalandıraraq meydanda edam etmiş, bununla da özlərini xalqın xilaskarı kimi qələmə vermişdilər.

Taliban hərəkatının lideri Molla Ömər hərəkatın meydana çıxmasını ölkədə baş verən özbaşınalıq, qarətçilik və hərc-mərcliyə cavab olaraq baş verən kortəbii bir proses kimi qiymətləndirmişdir.

Taliban müharibədən viran qalmış Əfqanıstanda klerikal faşizmin bir forması kimi meydana çıxmışdır. Bu hərəkatkiçik kənd burjuaziyasının - mollaların, kiçik məmurların, əkinçi və tacirlərin övladlarının diktator İslam rejimindən başqa heç bir digər idarə formasının müsbət nəticəsinə ümid etməməsini əks etdirirdi. Taliban hərəkatı Əfqanıstanda əsl islam idarəçiliyi yolunu seçdiyini bəyan edir və inqilaba və SSRİ - yə qarşı müharibənin yaratdığı obyektiv şəraitdən istifadə edib xalqın rəğbətini qazanırdı [64].

Dövlət qulluqçuları əyalətlərə olan ezamiyyətləri sevmirdilər, eyni zamanda əfqan kənd əhalisi hesab edirdi ki, şəhər bürokratları onların həyat tərzi və ictimai münasibətləri tənzimləyən və artıq qanuna çevrilmiş ənənələri haqqında heç nə bilmirlər. Dövlət bu mürəkkəb münasibətlərə təsir etmək və ya nəzarət etmək üçün bir qurum ola bilməmişdi.

Taliban hərəkatının formalaşması 1980-ci illərin ikinci yarısına, Sovet qoşunlarının Əfqanıstandan çıxarıldığı vaxta təsadüf edir. Taliban hərəkatı əsasən mədrəsələrin tələbələrindən ibarət idi. Bu hərəkat daxili çəkişmələrə son qoymaq və sülhü bərqərar etmək şüarlarını səsləndirərək əfqan xalqının rəğbətini qazanmışdır. Taliban hərəkatı, şübhəsiz ki, dini bir təşkilat idi, amma onun fundamentalizm xarakteri nəzərə çarpacaq dərəcədə deyildi. Belə ki, İslam ənənəvi

hüquqla -puştunların "paştunvali" adlanan yazılmamış qanunlarıilə sıx əlaqəli idi. Bu qanunlar vasitəsilə puştunlar gündəlik həyatda baş verə biləcək məsələləri və problemləri həll edirdilər. Məhz buna görə də mücahid partiyaları puştun tayfalarının məskunlaşdığı ərazilərdə xüsusi fəallıq göstərə bilmədilər. Həmçinin, İslam dininin sərt istiqamətləri Əfqanıstan əhalisi arasında heç vaxt populyar olmayıb.

Taliban hərəkatının fundamentalizmi İslamdininin irəli sürdüyü ilkin qaydalara yox, 1930-1940-cı illərdə üləmaların (ilahiyyatçıların) Əfqanıstanda ən böyük nüfuza malik olduğu vəziyyətə qayıtmağı nəzərdə tuturdu. Dini məsələlərin həllində onların sözü həm qanunvericilik, həm də icra hakimiyyəti orqanları üçün həlledici idi. Onlar məhkəmələrə və məktəblərə rəhbərlik edir, əhalinin ictimai və şəxsi həyatına, adət və ənənələrə riayət olunmasına nəzarət edirdilər [13, s.95-96].

1944-cü ildə şəriət qanunlarını daha dərindən öyrənən xüsusi məktəb yaradıldı və bu məktəb 1950-ci ildə Kabil Universitetinin İlahiyyat fakültəsinə çevrildi.

Taliban hərəkatının ideoloji əsasları üləma və mollaların mənafeyini ifadə edən və Taliban lideriMolla Məhəmməd Ömərin də sıralarında olduğu "İslam İnqilabı Hərəkatı"nın proqramına yaxın idi. Molla Ömər üləma və qəbilə başçılarının hörmət bəslədiyi və əməl etdiyi dəyərləri ən dolğun şəkildə ifadə edən "İslam Partiyası"nın da sıralarında olmuşdur [32, s.19].

Molla Ömərin bir vaxtlar həm də vəhhabi fundamentalizmini təbliğ edən "Əfqanıstanın Azadlığı üçün İslam Birliyi"nin də üzvü olması güman edilir.

Pakistan təhlükəsizlik xidmətinin strukturunda əsasən Əfqanıstanın cənubundan, puştunların yaşadığı ərazilərdən toplanmış, müharibədə valideynlərini itirmiş oğlanlardan ibarət xüsusi bir bölmə yaradılmışdı. Pakistanda olan əfqan qaçqın düşərgələrindən güc strukturlarını təşkil edə bilən mütəxəssislərin seçimi də həyata keçirilirdi. Xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən dini qurumlar öz mədrəsələrində oxumaq üçün məktəb yaşlı uşaqları seçirdilər ki, məhz bu məktəblərin məzunları Taliban hərəkatının əsasını təşkil edirdi [11, s.152].

Sovet-Əfqan müharibəsi dövründə puştunların birliyi və separatizm təhlükəsi rəsmi İslamabadın xarici siyasətinə əhəmiyyətli dərəcədə təsir edirdi. Pakistanın əfqan mücahidlərinə göstərdiyi dəstək onun təhlükəsizlik maraqlarına cavab verməli idi. Ona görə də Pakistan islamçılar və puştunlardan ibarət bir neçə qrupa dəstək vermək qərarına gəlmişdir. Bu siyasət İslam həmrəyliyinə yox, daha çox təhlükəsizlik qorxusuna əsaslanırdı: puştun millətçiliyinin nəzarətsiz olması onun qaçqınlar arasında yayılmasına və beləliklə, Pakistanın puştun tayfalarının üsyanına səbəb ola bilərdi.

Pakistanın o zamankı prezidenti qeyd edirdi ki, Pakistanın Əfqanıstanda dost rejimə malik olmaq hüququ var, çünkin həmsərhəd dövlət olaraq Pakistan daim təhlükə altındadır və ona qarşı ərazi iddiasında olan, Hindistan və SSRİ yönümlü rejimlərə hakimiyyətdə qalmağa imkan verilməyəcək.Əfqanıstanda hakimiyyətə gələcək qüvvələrin əsl İslam hökuməti qurması və Panislamist hərəkatının əsas halqalarından birini təşkil etməsi Pakistanın əsas istəyi idi [10, s.5].

Pakistan rəhbərliyi ilk vaxtlar Rəbbani hökumətini müvəqqəti hesab edirdi. Əfqanıstanın fundamentalist partiyaları Rəbbani hökumətinin Hindistan və Rusiya ilə olan yaxşı münasibətlərini Pakistan və puştunların ictimai rəyini hökumətin əleyhinə yönəltmək üçün istifadə edirilər. Rabbani ilə Hikmətyar arasındakı ziddiyyətlər imkan verirdi ki, Pakistan Əfqanıstanın siyasi səhnəsinə yeni qüvvə gətirmək planlarını həyata keçirsin.

Əfqanıstandakı daxili ziddiyyətlər üzərində qurulan oyunlar ona gətirib çıxardı ki, Kabil hökuməti mədrəsədə təhsil almış tələbələr arasından yeni bir qruplaşmanın yaradılması, bu qruplaşmanın Pakistan hökuməti tərəfindən maliyyələşdirilməsi və bir sıra əyalətlərin onun nəzarətinə keçməsinə razılıq versin. Pakistan güman edirdi ki, dünyada Taliban kimi tanınan yeni hərəkat Əfqanıstanın defraqmentasiyasını aradan qaldırmaq və Mərkəzi Asiyaya nəqliyyat dəhlizləri açmaq vəzifəsini yerinə yetirə biləcək. Zaman keçdikcə Əfqanıstanda ənənəvi liderlərin rolu kəskin şəkildə azalırdı. Hətta sovet qoşunlarına qarşı cihad da müəyyən dərəcədə tayfa birlikləri rəhbərləri arasında hakimiyyət uğrunda

mübarizə xarakteri daşıyırdı. Yeni ideoloji və siyasi komponentlərin tətbiq olunması Əfqanıstanın ənənəvi ictimai-siyasi quruluşunun əsasını sarsıtdı [6, s.56].

Belə ki, burada etnik azlıqların konsolidasiyası prosesi yeni təkan aldı, ərazi birliyi prinsiplərinə əsaslanan və müəyyən bir liderin ətrafında birləşən siyasi hərəkatlar formalaşmağa başladı. Ənənəvi sosial quruluşun parçalanması və qrup inteqrasiyasının yeni formalarının yaranması böyük ziddiyyətlərə yol açdı ki, bu da öz təcəssümünü Taliban hərəkatı kimi güclü qruplaşmanınmeydana çıxmasına kömək etdi. Tarixən puştun tayfaları həmişə Kabildəki mərkəzi hökumətdən yüksək dərəcədə muxtariyyətə sahib olmuşlar.

Taliban hərəkatının formalaşmasını əvvəllər Əfqanıstan cəmiyyətində dominantlıq etmiş puştunların etnik azlıqların siyasi çağırışına cavabı kimi şərh etmək olar. Taliban hərəkatının sosial-mədəni müstəvidə təhlilindən o nəticəyə gəlmək olur ki, bu hərəkat dəyişmiş Əfqanıstan reallıqlarına cavab kimi meydana çıxmışdır. Taliban hərəkatı İslam dininin radikal-inqilabçı formada yox, məhz mühafizəkar və ənənəvi anlayışına fokuslanır. Taliban hərəkatının radikallığı mücahidlərin Əfqanıstanı idarə etmə tərzinə yönəlmiş bir reaksiyadır.

Taliban hərəkatının Pakistanın sərhəd əyalətlərinin əhalisi və administrasiyası ilə etnik oxşarlığı, bir çox maraqlarının üst-üstə düşməsi bu hərəkatın planlarını daha da dərinləşdirirdi. Bu hərəkatın üzvləri pakistanlı gənclərin axını ilə çoxalırdı. Pakistanlı könüllülərin Taliban hərəkatına qoşulması 1994-cü ilin ikinci yarısı - 1995-ci ilin əvvəllərində başlamışdır [6, s.145].

Taliban hərəkatının yaranması üçün siyasi və sosial şərtlərlə yanaşı, iqtisadi amil də həlledici rol oynamışdır. Belə ki, son on ildə ABŞ strateji əhəmiyyətli Mərkəzi Asiya regionunda təsir imkanlarını genişləndirmək və Mərkəzi Asiya ölkələrinin sahib olduğu dünyanın ən böyük işlənməmiş neft və qaz ehtiyatlarını istismar etmək hüququ uğrunda Rusiya, Çin, Avropa dövlətləri və Yaponiya ilə rəqabət aparır. Mərkəzi Asiyanın enerji ehtiyatlarının bu təcrid olunmuş və dənizlərdən uzaq regiondan dünyanın əsas enerji bazarlarına çıxarılması probleminin həll olunması neft və qaz ixracından böyük mənfəətin əldə olunması

üçün əsas faktordur. ABŞ ixrac boru kəmərlərinin ABŞ-ın əhəmiyyətli dərəcədə siyasi təsir göstərə bildiyi ölkələrin ərazisindən çəkilməsini istəyir. Yəni, Rusiya, İran və Çinin kənarda qaldığı ixrac boru kəməri üçün iki variant mümkün idi: birinci kəmər Xəzər dənizindən başlayan və Cənubi Qafqazda Azərbaycan və Gürcüstan ərazisindən, daha sonra isə Türkiyə ərazisindən keçən uzun xəttdir. Digər boru kəmər xətti Əfqanıstan və Pakistandan keçən daha qısa xəttir, amma bu xətt çəkilməzdən əvvəl bir sıra çətin siyasi məsələlərin həll edilməsini vacib edir. Əfqanıstanda belə bir ixrac boru kəmərinin tikintisi və təhlükəsizliyinin təminatı ilə bağlı təminatı verə biləcək qüvvə lazım idi ki, bu zaman Taliban hərəkatı siyasi arenada aktivliyini göstərməyə başladı. 1994-cü ildə Taliban hərəkatı Molla Məhəmməd Ömərin başçılığı və ABŞ-ın dəstəyi ilə Əfqanıstana gəldi [32].

Beləliklə, 1994-cü ildə bu yeni hərəkatın birdən-birə siyasi arenaya çıxması, sürətlə böyüməsi və uğurlar qazanması iki amilin nəticəsi idi: birincisi, ölkədə hökm sürən sosial-iqtisadi və siyasi dalan, ikincisi, Pakistan, Səudiyyə Ərəbistanı və ABŞ-dan davamlı şəkildə edilən maliyyə yardımları, silah və məsləhətçilərin göndərilməsi.

Tədqiqatçılar Taliban hərəkatının Pakistan tərəfindən yaradıldığını irəli sürürlər. Əfqan tədqiqatçısı Mövləvi Sərvəri yazır ki, Taliban hərəkatının yaranmasında və daha sonra ona hərbi, informasiya və s. dəstəyin verilməsində Pakistanın həlledici rolu tamamilə aydın bir məsələdir və bu ölkənin Əfqanıstana yönəlik uzun müddətli siyasətinin ən mühüm elementidir [1, s.119].

Yəni, Taliban hərəkatının “xaç atası” Pakistanın daxili işlər naziri general Nəsirulla Babər, mənəvi ustadı isə Mövlana Fəzlür-Rəhman başda olmaqla Pakistanın “Cəmiyyəti-üləmayi-islam” adlı fundamentalist partiyası olmuşdur. Pakistanın sabiq baş naziri Bənazir Bhutto bildirirdi ki, Talibanın yaranması ideyası ingilislərə məxsus olmuş, ABŞ tərəfindən idarə olunmuş, Səudiyyə Ərəbistanı bu işi maliyyələşdirmiş, Pakistan isə icra etmişdir [1, s.125].

General Nəsirulla Babər etiraf etmişdir ki, o, nazir postunda olarkən, Taliban dəstələrinin təşkili və təliminin bilavasitə iştirakçısı olmuşdur: “Biz ümid edirdik

ki, islam şəriətinin bayrağı altında İran, Pakistan və Əfqanıstan üçlü ittifaqı İsrail sionizminin məkrli planlarını alt-üst edəcəkdir” - deyə, o bildirmişdir.

Taliban hərəkatının meydana gəlməsi və sürətli yüksəlişi sosial-iqtisadi vəziyyətlə əlaqədar idi. Taliblərin sıralarında ölkədəki qardaş qırğınında iştirak etmək istəməyən keçmiş komandanlar və sıravi mücahidlər də var idi. Mücahidlərin qurduğu rejim rəsmi olaraq “islam dövləti” adlansa da, onların yürütdüyü siyasət islam təlimindən uzaq idi və son dərəcə dindar olan sadə əfqanların əsasən kənd mollalarının təsiri altında formalaşmış dini təsəvvürlərinə uyğun gəlmirdi.

Taliban hərəkatı mücahidlərin hökumətini ölkədə islam şəriətini tətbiq edə bilməməkdə və təhlükəsizliyi təmin etməyə qadir olmamaqda ittiham edirdi və məhz bu iki məsələni özünün başlıca məqsədi kimi təqdim edir, müxtəlif qruplaşmaların əlindəki silahların yığılmasına nail olacağını bildirirdi ki, bu da təbii olaraq, cəmiyyətin rəğbətini qazanırdı.

Taliban hərəkatının yaranmasının siyasi səbəblərindən biri ölkədə mövcud olan siyasi qüvvələrin bir-biri ilə rəqabət aparması və bu istiqamətdə Taliban hərəkatına dəstək nümayiş etdirərək onu öz tərəfinə çəkmək niyyəti ilə əlaqədar idi. Məsələn, Bürhanəddin Rəbbani Talibanı milli əfqan hərəkatı kimi qiymətləndirmiş və “nəcib əməllərin dayağı” adlandırmışdı. General Rəşid Dustum 1996-cı ildə BBC radiosuna müsahibəsində demişdi: “Taliban - əfqan xalqıdır, bizim puştu qardaşlarımızdır. Biz Talibanı öz xalqımızdan ayırmırıq, onlar bizim millətimizin bir parçasıdır” [23, s.31].

Rəbbani sonralar Qəndəharda olduqları dövrdə Talibana maddi dəstək verdiyini də etiraf etmişdir. O, puştulardan yaranmış bu hərəkatın Hikmətyarın zəifləməsinə xidmət edəcəyini və onun maraqlarına uyğun olduğunu düşünürdü.

Pakistan Taliban hərəkatının formalaşmasında rol oynamış əsas aktorlardan biridir. Belə ki, Əfqanıstandakı müharibə illərində ölkəni tərk etmiş qaçqınlar üçün Pakistanın şimal-qərb əyalətində yaradılmış qaçqın düşərgələrinə humanitar yardımın paylanması sistemi tamamilə Pakistanın rəsmi strukturlarının nəzarəti

altında idi. Nəcibullah rejiminin süqutundan sonra Əfqanıstanda vətəndaş müharibəsinin yenidən alovlanması və mərhələyə daxil olması 3 milyona yaxın əfqan qaçqının əksər hissəsininöz ölkəsinə qayıtmasına mane oldu. Taliban hərəkatı əsasən bu qaçqınların arasından təşkil olunmuşdur.

Pakistanın Əfqanıstanla bağlı planlarını həyata keçirmək üçün yeni qüvvəyə ehtiyacı var idi və bu ehtiyacı məhz Taliban hərəkatı doldura bilərdi. 1990-cı ildə ingilisdilli "Kabul-tayms" qəzetində Əfqanıstan hökumətinin əlinə keçmiş məxfi sənəd nəşr olunmuşdu. Həmin sənəddə ölkənin Əfqanıstanla bağlı siyasətinin hədəfləri şərh edilirdi. Həmin hədəflərdən biri kimi Əfqanıstanın siyasi-iqtisadi strukturlarına nüfuz etməklə, ölkə əhalisinin rəyini yönləndirməklə, Əfqanıstan-Pakistan konfederasiyasının qurulmasına nail olmaq göstərilirdi. Bununla da Pakistan özünün yüz ildən bəri davam edən əsas problemini - "Puştunistan problemini" birdəfəlik həll etməyi düşünürdü. Pakistan özünün yetişdirdiyi Taliban hərəkatı ilə həm puştuların nüfuzunu bərpa etmək, digər tərəfdən Kabulda Pakistana loyal olan bir rejim formalaşdırıb ölkə üzərində böyük təsirə malik olmaq istəyirdi. Taliban vasitəsilə reallaşdırılması düşünülən ikinci hədəf isə iqtisadi səciyyəli olmaqla bərabər, həm də geosiyasi mahiyyət daşıyırdı. İqtisadi planlar iki istiqamətə malik idi: bir tərəfdən Orta Asiya bazarlarına Pakistan mallarının çıxışını təmin etmək, ikinci tərəfdən isə oradakı enerji resurslarının Pakistana daşınmasına nail olmaq.

SSRİ-nin dəstəyi ilə Kabildəki kommunist hökumət tərəfindən həyata keçirilən sürətləndirilmiş modernləşmə prosesi zamanı Əfqanıstanın ənənəvi strukturlar və dəyərlərinə təzyiq edilməsi bu təşkilati strukturların kütləvi şəkildə məhv olmasınagətirib çıxardı. Bu, ilk növbədə, cəmiyyətə, ailəyə və ənənəvi elita ilə əlaqələrə aid idi. Pakistanda mühacirətdə olan bir çox qaçqınlarmalik olduqları ənənə və dəyərlərini itirmişdilər.

Hesab edilirdi ki, İslam cəmiyyətində yeni dəyərlər tapmaqüçün Məhəmməd peyğəmbərin dövründəki ilk müsəlman cəmiyyətinin qurulması ideyası reallaşdırılmalıdır.

Məhz bu, müsəlman cəmiyyətində əsrlər boyu formalaşmış tarixi ənənə və dəyərləri inkar edən və xalis islam tərəfdarlarının yer aldığı hərəkatların formalaşmasına şərait yaratmışdır.

Taliban hərəkatına üzvlərin cəlb olunması prinsipini analiz edərkən məlum olur ki, bu hərəkatının siyasi rəhbərliyinə əfqan cəmiyyətinin ənənəvi elitasına aid olmayan insanlar daxil idi. 1994-cü ilin payızında Taliban Əfqanıstanın siyasi səhnəsinə çıxanda onun siyasi və hərbi liderlərinin əksəriyyəti Əfqanıstan ictimaiyyətinə tanış deyildi. Taliban hərəkatında Kabil kommunist rejiminin keçmiş liderlərinin hamısı Əfqanıstan Xalq Demokratik Partiyasının fraksiyasına aid idi. Hərəkatın lideri Məhəmməd Ömərin daha öncə Əfqanıstanın siyasi səhnəsində olmaması Pakistana imkan verirdi ki, rəsmi İslamabad Əfqanıstan ilə bağlı siyasətinihəyata keçirsin və eyni zamanda bu hərəkatın fəaliyyətinə tam nəzarəti əlində saxlaya bilsin.

Nəcibullah rejimi süqut etdikdən sonra paytaxt Kabil əfqan mücahidlərinin bölmələri tərəfindən ələ keçirildi. Amma mücahidlər iki əsas problemlə üzləşdilər: birinci problem ondan ibarət idi ki, paytaxt ələ keçirilsə də dövlət mexanizmləri işləmədi-bürokratlar ölkəni tərk etdi, ordu etnik və dini prinsiplər əsasında parçalanmaya məruz qaldı, təbii resursların çıxarılmasını idarə edə biləcək qurumlar yox idi. Digər problem isə mücahidlərin hakimiyyət uğrunda öz aralarında artan rəqabət idi.

Bunun əsas səbəblərindən biri mücahidlər arasında hakimiyyət uğrunda mübarizədən şiddətli silahlı qarşıdurmaya keçməsi və nəticədə paytaxtın özünə ciddi ziyan dəyməsi idi. Mücahidlərin Əfqanıstanda mübarizəsi dövründə mülki əhali arasında ölüm nisbəti kəskin azalsa da, Kabildə bunun tam əksi olmuşdur. Belə ki, şəhərin müxtəlif hissələri fərqli silahlı qüvvələrin nəzarəti altında idi. Şəhərin qərb hissəsinəşiələrin Birlik Partiyası, şimalına Məsuda sadiq qüvvələr, Bala Hisar bölgəsinə keçmiş kommunist komandir Əbdül Rəşid Dustum ilə bağlı olan qüvvələr, Paqmana isə Əbdül Rəb əl-Rəsul Səyyaf tərəfdarları nəzarət edirdilər.

Taliban hərəkatının mənəvi və siyasi elitasına çevrilən ən istedadlı tələbələr birbaşa "Camiat-e Üləma-e İslam"partiyasına tabe olan "Hakkaniya" adlananali ruhani məktəbində əlavə təhsil alırdılar. 1996-cı ildə Taliban Əfqanıstandakı yaraqlıların təlim düşərgələrinə nəzarəti "Camiat-e Üləma-e İslam"partiyasına verdi.

Taliban hərəkatının liderlərinin hazırlanması üçün digər mühüm mərkəz Pakistanın Kəraçi şəhərində yeləşən İslam Elmləri Cəmiyyəti olmuşdur. Bəzi məlumatlara görə, Talibanın keçmiş lideri Molla Məhəmməd Ömər də burada təhsil almışdır. Taliban İslam dinindən praqmatik formada istifadə edirdi. Birincisi, insanları İslam dininin hökmlərinə ciddi riayət etməyə məcbur etməklə Taliban çalışırdı ki, onları qanunlara riayət etmək vərdişinə qaytarsın, çünki Əfqanıstandadövlət birsiyasi institut kimi dağılmış, həmçinin sivilizasiyanın tənəzzülü baş vermişdi. Taliban hərəkatı hakimiyyətə gəldiyi zaman qanunlar, demək olar ki, işləmirdi, əhali silahlı qrupların zülmündən əziyyət çəkirdi. İkincisi, Taliban hərəkatı başa düşürdü ki, islami şüarlar olmadan İslam ölkəsində hakimiyyət ələ almaq mümkün deyil. Taliban hərəkatı öz hakimiyyətini bütün ölkəyə yaymaq üçün mübarizə mərhələsində olduğu üçün bu şüarlardan geniş istifadə edirdi. Üçüncüsü, İslam dini həmişə etnik müxtəlifliyə malik olan ölkələrnin əhalisini birləşdirən bir vasitə rolunu oynamışdır. Dördüncüsü, belə bir siyasətin həyata keçirilməsi ərəb ölkələri tərəfindən maliyyə yardımlarının edilməsinə şərait yarada bilərdi.

1973-cü ildə Daud tərəfindən monarxiyanın ləğv edilməsi, 1978-ci ilin aprel ayında baş vermiş hadisələr nəticəsində Əfqanıstanda islam dininin mövqeyinin sarsılması və daha sonra SSRİ - nin işğal faktı xaosa, ölkənin siyasi institut kimi dağılmasına səbəb oldu. Bu hallar ölkədə aşağıdan kortəbii islamlaşmaya yol açdı ki, bu da özünü Talibanın simasında büruzə verdi.

1978-ci ilin aprel ayında baş vermiş kommunist çevrilişindən və 1979-cu ilin dekabr ayında həyata keçirilən Sovet işğalından sonrakı 40 il ərzində Əfqanıstan, xalqın və ölkə ərazisinin əksər hissəsinə nəzarət etmək və idarə etmək iqtidarında

olmayan siyasi və ideoloji qüvvələrin təsirinə məruz qalmışdır. Sovet İttifaqı tərəfindən işğal faktı isə bu ölkəni Soyuq müharibənin döyüş meydanına çevirmişdi. Soyuq müharibənin bitməsi və Sovet İttifaqının dağılması Əfqanıstanı yeni rəqabət meydanına çevirdi və bu dəfə bir - biri ilə mübarizə aparan tərəflər regional aktorlar idi ki, bu rəqiblər bir - birinin Əfqanıstan ərazisində möhkəmlənməsinə mane olmağa çalışırdılar.

## 1.2. Taliblərin Əfqanıstanda hakimiyyətə gəlməsi və regional və qlobal təhlükəsizliyi təhdid etməsi

Talibanın yaradılması prosesi Əfqanıstana təsir edən vətəndaş müharibəsi zamanı baş verib. 1970-ci illərdə kommunizmin təsiri və 1979-cu ildə sovet işğalına qarşı başlayan müqavimət 1989-cu ildə uğurla başa çatdı və Sovet İttifaqı ölkədən çıxdı. Bundan sonra ölkədə kommunist hakimiyyətinə qarşı müharibə 1992-ci ilə qədər davam etdi. Lakin 1989-1996-cı illər Əfqanıstanda müqavimət qrupları arasında böyük müharibələr oldu.

Bu müharibələrin əsasını ölkədə müqavimət prosesinin mütəşəkkil və nəzarətli şəkildə deyil, daha çox yerli təşkilatlar, etnik-tayfa bağları, şəxsi münasibətlər və güc mərkəzləri vasitəsilə getməsi təşkil edirdi. Müqavimət qruplarına, bəzi cinayətkar dəstələrə, kommunist rejiminin qalıqlarına və sərkərdələrə bağlı strukturlar 1989-cu ildən sonra ciddi xaos dövrü başlatdı. Bu istiqamətdə vətəndaş həyatı, təhsil, ticarət, təhlükəsizlik və hüquq tamamilə dayandı və ölkədə böyük böhran başladı.

Taliban bu böhran prosesinin nəticəsi olaraq yaranıb. Vətəndaş müharibəsi prosesində iştirak etməyən və əksəriyyəti İnqilab Hərəkatının üzvləri olan mədrəsələrdə təhsillərinə qayıdan ruhanilər ölkədəki xaosa qarşı hərəkətə keçiblər. İlk dəfə 1994-cü ildə cənubda puştun mollaları üzərində başlayan bu təşkilat bir il ərzində digər etnik qruplara və ölkənin müxtəlif bölgələrinə yayıldı. Bir çox bölgə münaqişəsiz Talibana qoşuldu.

Talibanın qurucu lideri Molla Məhəmməd Ömər bildirir ki, hərəkatın yaradılması prosesi 1994-cü ildə "onun regionda davam edən xaosa son qoymaq işi ilə" başlayıb. Molla Ömər deyir ki, onlar bölgədəki mədrəsələrin mollalarını və tələbələrini ziyarət edərək onları bu təşəbbüsü göstərməyə razı salıb, bölgədən aldıqları silahlardan istifadə edərək yerli sərkərdələri məğlub ediblər.

Bu prosesdən sonra hərəkat Qəndəhar və Hilmenddən başlayaraq qısa müddətdə bir çox bölgəni öz nəzarəti altına aldı. Bu bölgələrdə nizami idarə

qurulmağa başlandı, məhkəmələr yaradıldı, daxili və xarici tərəflərlə əlaqələr quruldu. 1996-cı ilin sentyabrında vətəndaş müharibəsində iştirak edən qruplar arasında baş verən münaqişələrdən istifadə edərək paytaxt Kabili ələ keçirən Taliban “Əfqanıstan İslam Əmirliyi” elan etdi. 2000-ci ilə qədər ölkənin 90 faizindən çoxu Talibanın nəzarəti altında idi.

1996-2001-ci illər arasında Taliban Əfqanıstanı "Əfqanıstan İslam Əmirliyi" adı ilə idarə edib. Bu dövr bəziləri tərəfindən “Dünyada Osmanlıdan sonra İslam şəriətinin hökm sürdüyü ilk dövlət”, bəziləri isə bu 5 illik dövrü “zalım dini idarə” adlandırıb.

Bu prosesdə dünyanın Əfqanıstana tətbiq etdiyi embarqoların təsirləri və Qərb mediasının Talibana qarşı apardığı kampaniya ölkənin içində olduğu siyasi, sosial və hərbi böhranların təsirinə əlavə olundu. Ölkəyə tətbiq edilən blokada və embarqo nəticəsində yüzlərlə uşaq dərman və qida çatışmazlığından dünyasını dəyişib.

Taliban ilk olaraq İran, Hindistan, Rusiya, ABŞ, Türkiyə, Tacikistan və Özbəkistan kimi partiyaların dəstəklədiyi Şimal Alyansı qüvvələrinə qarşı döyüşüb. Səudiyyə Ərəbistanının dəstəklədiyi Əbdürrəsul Səyyaf qrupu, İranın dəstəklədiyi şiə Həzara milisləri kimi partiyalar da bu ittifaqa qoşulub.

Narkotik istehsalı məqsədilə becərilən tiryək əkilməsi qadağan edilib. Bununla paralel olaraq Əfqanıstanda tiryək əkini və bununla bağlı narkotik istehsalı 100 faizə yaxın azalıb. ABŞ-ın işğalından sonra bu nisbət 13 dəfədən çox artacaqdı.

Ölkədə 1960-cı illərdən bəri ilk dəfə olaraq ticarət yolları, mülki və hüquqi infrastruktur, təhlükəsizlik və sabitlik yaradıla bildi. İlk dəfədir ki, müharibə prosesi böyük ölçüdə başa çatmışdı.

Talibanın ən çox tənqid olunduğu məqam İslam qanunlarının tətbiqinə münasibətində sərtlik olub. Xüsusilə Hənəfi fiqhinin barışmaz tətbiqi və Bamyanda Budda heykəllərinin dağıdılması bəzi reaksiyalara səbəb olub.

Bu münasibət nəticəsində Qərb mediasının anti-Taliban kampaniyaları ilə birlikdə bütün dünyada anti-Taliban əhval-ruhiyyəsi güclənib. Taliban qadınların təhsilinə qarşı olmaq, məcburi saqqal uzatmaq, qadınların çölə çıxmasına və işləməsinə mane olmaq kimi əməllərdə günahlandırılsa da, hərəkat bunların real olmadığını müdafiə edib.

Talibanın təbliğat və media imkanlarının Qərb mediası ilə rəqabət apara bilməyəcək qədər məhdud olması dünyanın Əfqanıstana baxışının Qərb mediasının oxunda inkişafı ilə nəticələndi.

Digər reaksiya məqamı isə Talibanın Həzara əhalisinə münasibəti oldu. Bu prosesdə şiə həzaralara, xüsusən də İranla münasibətlərinə mənfi münasibət bəsləndiyi və bunun həzaraları tamamilə İrana itələdiyinə dair tənqidlər səsləndi.

Taliban 1990-cı illərdə hökumətdə az təcrübəyə malik olduqlarını ifadə edərək, özləri haqqında bu tənqidləri qismən qəbul edir. Talibanın yeni dövrdə bir çox məsələlərdə daha uzlaşmacı və əhatəli davranması diqqətəlayiq hadisə kimi şərh edilir.

2021-ci il avqustun 15-də Taliban qüvvələrinin Əfqanıstanın paytaxtı Kabilə daxil olması və müqavimət göstərmədən nəzarəti ələ keçirməsi təkcə bu ölkə üçün deyil, həm də regional və qlobal siyasət üçün çox mühüm dönüş nöqtəsi hesab edilməlidir.

Qlobal nöqteyi-nəzərdən Əfqanıstan keçmişdə və indiki dövrdə böyük dövlətlər arasında bufer zona rolunu oynayıb və bu vəziyyət bu gün də davam edir.

Məlum olduğu kimi, Əfqanıstan 2001-ci il sentyabrın 11-də ABŞ-ın Nyu-York şəhərindəki Əkiz Qüllələrə edilən hücumdan bir ay sonra terrora dəstək ittihamı ilə ABŞ tərəfindən işğal edilib. ABŞ-ın həmin dövrdəki prezidenti Corc Buş Vaşinqton müqaviləsinin 5-ci maddəsinə istinad edərək NATO ölkələrini Əfqanıstan əməliyyatında iştirak etməyə məcbur etdi. ABŞ-ın Əfqanıstandakı əməliyyatının hədəfi hələ də sirr olaraq qalır.

Əkiz qüllələrə hücumla Əl-Qaidənin fəaliyyətinin Əfqanıstanla əlaqələndirilməsi arasında əlaqə olub-olmaması açıq sualdır. Çünki Yaponiyanın 6

dekabr 1941-ci ildə Pörl Harbora hücumuna bənzər bir vəziyyət var ki, bu da ABŞ-ın İkinci Dünya Müharibəsində iştirakına qapı açdı. ABŞ İkinci Dünya Müharibəsində iştirak etmək və köhnə dünya üzərində hökmranlıq istəklərinə nail olmaq üçün Pearl Harbora hücumdan xəbərdar olsa da, bunun qarşısını ala bilmədi. Bənzər bir vəziyyət Əkiz Qüllələrdə də mövcuddur. Əkiz qüllələrə hücumun ABŞ-ın xarici aləmdəki hərbi fəaliyyətinə ictimai dəstək məqsədi daşıdığı, hətta üstü örtülü dəstək verildiyi bildirilib. “911truth.org” saytının açıq şəkildə ortaya qoyduğu kimi, şahidlərin, kəşfiyyat mütəxəssislərinin və polad konstruksiya inşaatçılarının Əkiz qüllələrə hücumu ilə bağlı ortaq fikri budur ki, hadisəni ABŞ hökuməti özü uydurub və idarə edib. Məqsəd Orta Asiya coğrafiyasını Rusiyanın təsirindən xilas etmək idi[33, s.65].

Əfqanıstanda baş verən proseslər, xüsusən də Talibanın paytaxta daxil olması və hava limanından təxliyəsi ilə bağlı görüntülər bütün dünya tərəfindən diqqətlə izlənilib. Talibanın uğurunu “ABŞ imperializminə müqavimət göstərən əfqan xalqının mübarizəsi”, “Əfqanıstanda sonu olmayan yeni xaos dövrü başladı” kimi oxuyanlar da oldu.

NATO-nun Əfqanıstandakı əməliyyatı Əkiz Qüllələrə hücumdan bir ay sonra başlayıb, guya ki, burada məqsəd həm terrorla mübarizə, həm də Əfqanıstanın bərpası olacaqdı. Üstündən 20 ilə yaxın vaxt keçməsinə baxmayaraq, Əfqanıstan əməliyyatının məqsədi heç vaxt açıqlanmayıb. 2011-ci ildə Obama administrasiyası dövründə Əfqanıstandan çəkilmə məsələsi gündəmə gəlmişdi. Bu açıqlamadan sonra Qətərin paytaxtı Dohada ABŞ və Taliban arasında gizli danışıqlar davam edib. Danışıqlarda “Taliban”la ABŞ arasında 2021-ci ilin payızında NATO qüvvələrinin ölkədən çıxması və keçid hökumətinin qurulması ilə bağlı razılıq əldə olunub. Bununla belə, sahədəki proseslər və Əşrəf Qaninin rəhbərlik etdiyi mərkəzi hökumət qüvvələrinin Talibana qarşı dayana bilməməsi razılaşmanı təsirsiz qoyub. Nəticədə bir-birinin ardınca Əfqanıstanın mühüm şəhərlərinə nəzarəti ələ keçirən Taliban heç bir ciddi müqavimətlə qarşılaşmadan

avqustun 15-dən etibarən paytaxt Kabilə daxil olub. Prezident Əşrəf Qani silahlı münaqişədən qaçmaq üçün ölkəni tərk etdiyini açıqlayıb.

Əfqanıstanda baş verən proseslər, xüsusən də Talibanın paytaxta daxil olması və hava limanından təxliyəsi ilə bağlı görüntülər bütün dünya tərəfindən diqqətlə izlənilib. Talibanın uğurunu "ABŞ imperializminə müqavimət göstərən əfqan xalqının mübarizəsi", "Əfqanıstanda sonu olmayan yeni xaos dövrü başladı" kimi oxuyanlar da oldu. Taliban sözçülərinin verdiyi açıqlamalarda siyasi amnistiyanın verildiyi, qadınların həyatına müdaxilə olunmayacağı, hər kəsin işini davam etdirməli olduğu bildirilib. Taliban sözçüsü Süheyl Şahinin verdiyi başqa bir açıqlamada qadınların universitet daxil olmaqla işləmək və təhsil haqqının davam edə biləcəyi vurğulanıb. Bu arada Taliban komandirlərinin prezident sarayının görüntüləri beynəlxalq xəbər agentlikləri tərəfindən son dəqiqə hadisəsi kimi təqdim edilib.

Əfqanıstanda Taliban administrasiyasına qarşı yeganə müqavimət hərəkatı Pənşir vadisində yaranıb. Keçmiş mücahid komandirlərindən Əhməd Şah Məsudun oğlunun ətrafına toplaşanlar Talibana qarşı mübarizəyə başladıqlarını açıqlayıblar. Pakistanın xarici işlər naziri Şah Mahmud Qureşinin sözlərinə görə, bu cür uğursuz müxalifət hərəkatları ilə mübarizə aparmağın yolu hərtərəfli və geniş əsaslı siyasi konsensusdan keçir. Bu arada Pakistanın Birləşmiş Millətlər Təşkilatı (BMT) yanında daimi nümayəndəsinin verdiyi açıqlamada Talibanın quracağı hökumətdə müxalifətin də yer alması lazım olduğunu qeyd edib, əks halda etnik və dini qarşıdurmaların yarana biləcəyini bildirib. Bu cür çağırışların Pakistan tərəfindən edilməsi həqiqətən vacibdir. İslamabad administrasiyasının Talibana güclü təsiri var. Əslində, Taliban sovet işğalı illərində Əfqanıstandan qaçaraq Pakistana sığınan qaçqınların övladlarının təhsil alması zamanı Pakistan Kəşfiyyat İdarəsi tərəfindən yaradılıb. "Tələbələr hərəkatı" mənasını verən Taliban 1990-cı illərdə Sovet işğalının sonunda Əfqanıstanda Mücahidlər Koalisiyası hökumətinin iflasa uğramasından sonra sosial bazasını gücləndirmişdi.

Tərkibində başqa millətlərdən olan insanların olmasına baxmayaraq, Taliban əsasən puştun siyasi hərəkatı kimliyini daşıyır. Puştunlar Əfqanıstanın 38 milyon əhalisinin 42 faizini təşkil edən ən sıx etnik qrupdur. Puştunlar Əfqanıstan və Pakistan sərhədinin Pakistan tərəfində də yaşayırlar (Durant xətti). Taciklər 27 faizlə Əfqanıstanda ikinci ən çox əhalisi olan qrupdur. Əhalidə özbəklərin nisbəti 9 faiz civarındadır. Şiə olan həzaraların nisbəti təxminən özbəklərlə eyni səviyyədədir. Farsdilli taciklər və şiə həzaralar İranın Əfqanıstandakı təbii müttəfiqləridir. Ölkədə əhalinin sayı daha aşağı olan xalqlar bəluclər, aymaklar, pamirlər və qırğızlar kimi qeyd olunub. Buna baxmayaraq, əfqan üstü şəxsiyyətinin bərqərar oluna bilmədiyi ölkədə etnik qrupların heç biri separatçı məqsəd güdmür. Taciklər və özbəklər öz coğrafiyalarında heç vaxt irredentist (itirilmiş torpaqları geri almaq istəyi) yanaşmayıblar. Öz bölgələrinin Tacikistan və Özbəkistana birləşməsinə meyl yox idi. Bu baxımdan Əfqanıstanda yaşayan xalqlar arasında torpağa üstüörtülü/üzvi bağlılıq və vətənpərvərlik ən güclü siyasi meyl kimi diqqət çəkir.

Bu məlumatlardan sonra Talibanın paytaxt Kabili ikinci dəfə ələ keçirməsi və Əfqanıstanda hakim güc olaraq ələ keçirməsinin qlobal, yerli, müasir İslami siyasi hərəkatlar və Türkiyə baxımından təsirlərini araşdırmaq lazımdır.

Əfqanıstan qlobal güclər arasında bufer zonadır. Qlobal nöqteyi-nəzərdən Əfqanıstan keçmişdə və indiki dövrdə böyük dövlətlər arasında bufer zona rolunu oynayıb və bu vəziyyət bu gün də davam edir. Kennana görə 11 sentyabr 2001-ci il hücumlarından sonra Əfqanıstana qarşı əməliyyatın güman edilən məqsədi "terrorla mübarizə" idi. ABŞ-ın müdaxiləsinin heç vaxt vurğulanmayan ölçüsü ondan ibarətdir ki, ABŞ Soyuq Müharibədən sonrakı dövrdə Mərkəzi Asiya coğrafiyasında öz fəaliyyət sahəsini genişləndirməyi hədəfləyib. Bu gün gəldiyimiz mərhələdə Çinin yeni bir aktor olaraq "Kəmər və Yol" layihəsi çərçivəsində Əfqanıstana təsirini artırmaq üçün hərəkətə keçəcəyi anlaşılır. Yeni dövrdə Çinin bu təşəbbüsünə cavab olaraq bölgə üzərində güc balansında Rusiya, Pakistan və Türkiyənin münasibəti önəmlidir.

Başqa bir baxımdan Əfqanıstanda qurulacaq Taliban administrasiyası diqqəti çağdaş İslam siyasi hərəkatlarına yönəldəcək. Əgər Taliban barışdırıcı yanaşma tərzinə və sərt təcrübələrə əl atmasa, bu vəziyyətin bütün dünyada yeni islamafobiya dalğası yaradacağı aydındır. 11 Sentyabr hadisəsindən sonra İslamı terrorizm və zorakılıqla sinonim hesab etmək fikri əvvəlcə ABŞ-da, sonra isə Avropada və dünyanın digər yerlərində geniş yayıldı və bütün müsəlmanlar potensial təhlükə kimi qəbul edildi. Əgər Taliban administrasiyası bütün tərəfləri digər qruplarla uzlaşacaq bir hökumət qurmaqdan uzaqlaşarsa və 1990-cı illərdə ortaya qoyduğu təcrübələri davam etdirməyə çalışarsa, İslam dünyasında, Qərbdə və müasir dövrdə yeni müzakirələr başlayacaq. İslami siyasi hərəkatlar və İslam anlayışları ənənəvi, zorakı xarakter alacaq və digər versiyaların müzakirəsi başlayacaq.

Türkiyə meydanı Rusiya və Çinə buraxmayacaqdır. Əfqanıstanda Talibanın hakimiyyətə gəlməsi Türkiyənin Əfqanıstan və Orta Asiya siyasətlərinə təsir edəcəkmi? Məlumdur ki, NATO qüvvələrinin tərkibində xidmət edən türk əsgərləri döyüş vəzifələrini öhdələrinə götürmür və ölkədəki bütün etnik qruplara humanitar və texniki dəstək verir. Xarici işlər naziri Mövlud Çavuşoğlu açıqlamasında bu məsələyə diqqət çəkərək Türkiyənin əvvəldən bütün tərəflərlə dialoq apardığını və bura Talibanın da daxil olduğunu bildirib. Çavuşoğlu Türkiyənin qarşıdakı dövrdə Talibanla hər mövzuda birgə çalışa biləcəyini də qeyd edib. Həqiqətən də Türkiyənin bundan sonra Taliban administrasiyası ilə münasibətlərinin gedişatı Çavuşoğlunun açıqlamasında açıq şəkildə ifadə edilir:

“ABŞ Talibanla oturub müqavilə imzalayır, burada heç bir problem yoxdur. Biz öz maraqlarımız üçün hər kəslə danışmalıyıq. Bu o demək deyil ki, biz onları övladlığa götürürük, liderliyini ya ideologiyasını qəbul edirik. Çin, Rusiya, İran da Talibanla görüşür. Hər kəs praqmatikdir:”Bunlar normal şeylərdir. Deməmişik ki, Taliban anlayışını və rejimini qəbul edirik. Onların mesajlarını alqışlayırıq”[32].

Bu açıqlamalardan da anlaşıldığı kimi Türkiyənin yeni dövrdəki Əfqanıstan siyasəti günün şərtlərinə uyğunlaşaraq bu coğrafiyada həyata keçirdiyi

fəaliyyətlərin davam etdirilməsini nəzərdə tutur. Türkiyənin Əfqanıstan siyasəti Talibanın ifrat təcrübələrdən uzaqlaşmasına və onları ağlabatan bir xəttə yönəltməsinə töhfə verəcəkdir. Digər tərəfdən Türkiyə Əfqanıstandan tamamilə çıxsa, bu coğrafiya Rusiya və Çinin təsirinə buraxılacaq. Türkiyənin Əfqanıstandan uzaq durması həm də 1990-cı illərdən bəri böyük qayğı ilə yürütdüyü, Rusiya ilə birbaşa qarşıdurmaya düşməmək üçün zaman-zaman yavaş-yavaş apardığı Orta Asiya siyasətindən geri dönüş demək olacaqdır. Türkiyədə heç bir hökumətin belə siyasət yürütmək lüksü yoxdur.

Nəticədə yaxın günlərdə Əfqanıstanda Talibanın təkbaşına və ya başqaları ilə koalisiyada iştirak edəcəyi yeni hökumət qurulacaq və təkcə bu ölkə üçün deyil, qlobal və regional üçün də yeni dövr başlayacaqdır. Türkiyənin milli maraqları yeni administrasiya ilə əməkdaşlıq, dialoq və birgə fəaliyyət tələb edir.

Əfqanıstan müharibəsinin nəticələri bu ölkə üçün həqiqətən də çox ağır oldu. İnsanlara qarşı bu cür vəhşiliklərdən başqa, Taliban hərəkatı vandalizm aktları da həyata keçirilirdi. 2001-ci ilin mart ayında məşhur Bamiyan Buddalarının dağıdılması bu vandalizm aktının bir misalıdır. Əhməd Şah Məsudun rəhbərliyi ilə Talibana qarşı müqavimət davam etdirilirdi, amma hərəkat Əfqanıstanın BMT-dəki yerini saxlaya bilmədi və bu rejim yalnız Pakistan, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri tərəfindəntanındı.

Əfqanıstanda baş verən hadisələr Mərkəzi Asiya ölkələrinin cənub sərhədlərinə, xüsusən də Tacikistan və Özbəkistana böyük təsir edirdi. Mərkəzi Asiyada təhlükəsizlik təhdidlərinin yaranması və artmasına həm ənənəvi amillər, həm də Mərkəzi Asiya dövlətlərinin müstəqil inkişafının xüsusiyyətləri təsiretmişdir. SSRİ-nin dağılmasından dərhal sonra Mərkəzi Asiya ölkələrində başlayan sistemli siyasi, iqtisadi, mədəni, mənəvi və ideoloji böhran vəziyyəti daha da gərginləşdirmişdi.

Mərkəzi Asiyanın təhlükəsizliyinə real təhlükə yaradan faktor Əfqanıstandakı vəziyyət deyil, Taliban hərəkatının təsir zonalarını genişləndirməsi və onların gələcəkdə Əfqanıstanda hakimiyyətə gəlməsinin mümkünlüyü təhlükəsi

ilə bağlıdır. Əfqanıstandakı Taliban rejimi Mərkəzi Asiya ölkələrindən, xüsusən də Tacikistan, Özbəkistan, Qırğızıstandanolan silahlıların hərbi təlim keçməsi və narkotik qaçaqmalçılığı yolu ilə maliyyə vəsaiti əldə etməsi üçün əlverişli şərait yaratmışdır.

Mərkəzi Asiya ölkələrinin regional və milli təhlükəsizliyinə əsas təhdidlər sistemində dini və siyasi ekstremizm təhlükəsi olduqca yüksəkdir. Onların ərazisində fəaliyyət göstərən dini təşkilatlar bu dövlətlərin əsaslarını sarsıtmağa və son nəticədə müxtəlif ölkələrin ictimai-siyasi sistemini dəyişməyə yönəlmiş radikal ideologiyanın yayılmasına yönəlmiş fəaliyyət göstərirlər.

Taliban hərəkatının hakimiyyəti dövründə Əfqanıstan ərazisi faktiki olaraq, ekstremist və terror təşkilatlarının üzvlərinin hazırlanması üçün əsas mərkəzə, radikal ideologiyanın qlobal səviyyədə yayılmasının əsas qərargahına çevrildi. Taliban hərəkatının Mərkəzi Asiya ölkələrində bir sıra dini ekstremist təşkilatlara göstərdiyi dəstək onların keyfiyyət və kəmiyyət artımına əhəmiyyətli dərəcədə kömək etdi.

Baxmayaraq ki, son zamanlarda Talibana qarşı aparılan antiterror əməliyyatı əsasən Əfqanıstanın milli silahlı qüvvələri tərəfindən davam etdirilir, radikal islamçıların Mərkəzi Asiya regionunda daha da genişlənməsi probleminin yaxın gələcəkdə həll olunasını gözləmək olmaz. Əfqanıstandakı mövcud böhran tendensiyaları göstərir ki, "Əl-Qaidə" terror təşkilatı və Taliban hərəkatı iləbağlı olan terrorçu infrastrukturlarının məhv edilməsi üzrə aparılan hərbi əməliyyatlardan hələ də tam nəticə əldə olunmayıb və buna görə də son dövrlərdə yeni ziddiyyətlərin yaranması üçün bütün ilkin şərtlər qalmaqda davam edir. Bu isə öz növbəsində Əfqanıstanda və münaqişə xətlərində yeni silahlı toqquşmalara yol aça bilər.

### 1.3. Taliblərin sosial-psixoloji portreti

Dünya əhalisinin, xüsusilə də keçmiş SSRİ və dünya sosializm sistemi məkanında təmsil olunan əhalinin 90%-i artıq özünün tanrıya əsl inancını açıq

şəkildə ifadə etməyə başlamışdı. Bu isə sözügedən məkanda yaşayan xalqların uzun müddət ruhani qadağalar altında yaşaması, dövlət səviyyəsində həyata keçirilən din əleyhinə sərt təbliğatla bağlı idi. Beləliklə, dini hisslərin və dini fəaliyyətin aktiv dirçəlişi prosesi ilə əlaqədar, baş verən bütün etnik münasibətlərin məzmununu artıq tək iqtisadi-mədəni faktor deyil, həm də aydın ifadə olunan dini faktor təyin etməyə başlamışdı. Lakin qəflətən təzahür edən və çoxdandır ki, "ciddi ruhani aclıq hissi" keçirən insanlara "havayı verilən vicdan azadlığı" cəmiyyətin əxlaqi-mənəvi durumuna yüksək təşəkküllü müsbət məzmun gətirsə də, həmişə olduğu kimi, bu dəfə də çoxlu sayda müxtəlif fəsadları üzə çıxartdı. Siyasi səhnəyə dini fanatiklərdən, sektantlardan, ekstremistlərdən, radikalistlərdən ibarət və cəmiyyətdə qeyri-sabitlik yaratmağa həmişə hazır olan çeşidli etnik-dini qüvvələr çıxdı. Əvvəllər tamamilə qadağan olunmuş sektalar və təriqətlər dirçəldikdən sonra, başqa dinin mənsublarını öz tərəflərinə çəkmək üçün açıq təbliğata başladılar. Cəmiyyətdə əsl qeyri-sabitlik yaradan, etnoslar arasında böyük narazılıqlara səbəb olan belə təşkilatlar həm xristianlığın, həm islamın, həm də digər dinlərin adından çıxış edir, beləcə etnik-dini münasibətlərdə ifrat çaşqınlıq yaradırdılar. Bu dövrdə bir-birinin ardınca ortaya çıxan ekstremist dini təşkilatlar dünyada baş verən hərbi-siyasi və etnik-dini proseslərdə olduqca aktiv rol oynamağa başlamışdılar.

Belə təşkilatlar sırasında 1988-ci ildə yaradılmış və vəhhabiliyin daha radikal qolunu tərənnüm edən Əl-Qaidə (ərəb. əl-qauda - əsas, təməl, prinsip) təşkilatını xüsusi olaraq qeyd etmək lazımdır. Təşkilatın ilk rüşeymləri 1979-cu ildə başlanmış Əfqanıstan müharibəsi dalğasında milli-azadlıq hərəkatının bir qanadı qismində meydana gəlsə də, onun yekun məqsədi müsəlman ölkələrində mövcud dünyəvi siyasi rejimləri ləğv etmək, ifrat dini fundamentalizmə əsaslanan qəddar idarəçilik sistemi yaratmaq və "Böyük islam xilafəti" qurmaqdan ibarət idi. Müharibə partiyası olaraq, Əl-Qaidə daim İslam dünyasında etnik-dini və etnik-milli zəmində baş qaldıran münaqişəli proseslərin mərkəzində idi [9]. Sözügedən dövrdə etnik-dini və etnik-milli münaqişələr dalğasında yaranmış radikal dini

təşkilatlardan biri də məşhur taliban təşkilatı, yaxud taliban hərəkatı idi. Taliban (iran və puştu dilindən tərcümədə "mədrəsədə təhsil alan tələbə" anlamındadır) hərəkatı 1994-cü ildə Əfqanıstanda etnik puştunlar (qədim iran.Parşvana -igid, pəhləvan deməkdir. Puştunvali, yaxud Nana adlanan "Ləyaqət kodeksi"nə uyğun yaşayan İran xalqı, Əfqanıstanın cənubunda, cənub-şərqində, Pakistanın şimal-qərbində məskunlaşmışlar) tərəfindən yaradılmışdı. Taliblər hətta 1996-2001-ci illər ərzində "Əfqanıstan İslam Əmirliyini", daha sonra isə 2004-cü ildən Pakistanın şimalında yerləşən Vəziristan əyalətini idarə etmişdilər. Qeyd etmək lazımdır ki, taliblərin yaratdıqları siyasi qurumu rəsmi olaraq yalnız üç dövlət - Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı və Pakistan tanımışdı.Taliban təşkilatı puştunlardan başqa, ərəbləri, tacikləri, özbəkləri, xəzərləri, beluciləri, pəncabları və başqa etnosların mənsublarını birləşdirsə də, dini-ideoloji baxımdan o, ifrat intolerantlığın ən radikal forması idi. Bütün digər özgə dəyərləri, ideyaları və ekzistensial formaları inkar edən üzdəniraq hərəkat hər hansı yeniliyə, maarifçiliyə, dünyəviliyə, tərəqqiyə qəti şəkildə "yox" deyirdi və bu ideya naminə bütün dünyaya belə müharibə elan etməyə hazır idi. Taliban intolerantlığının məntiqi yekunu isə hərəkatın rəhbəri Molla Məhəmməd Ömərin (1959-2013) 26 fevral 2001-ci il tarixli dini fətvası oldu. Bu fətva Əfqanıstanın Bamian əyalətində e.ə. VI əsrə aid olan qaya üzərində çapılmış Buddanın heykəllərinin (55 və 37 metr hündürlükləri olan iki qədim heykəl) məhv edilməsini nəzərdə tuturdu [10].

Fətvada deyilirdi ki, "Allah təkdir, bu heykəllər isə onlara sitayiş edilmək üçün ucaldılmışdır, bu isə səhvdir. Onlar dağıdılmalıdır, ondan ötrü ki, onlar nə indi, nə də gələcəkdə sitayiş obyekti olmasın". Taliblərin bəşəriyyətin mədəni irsinə qarşı əsl sui-qəsd kimi qiymətləndirilən belə hərəkətlərini təkcə beynəlxalq təşkilatlar və dünyanın aparıcı dövlətləri deyil, həm də müsəlman dövlətləri, islam dini qurumlarının rəhbərləri qınadı. Bu hadisə taliblərin imicinə güclü zərbə vurdu və dünyanın bütün mütərəqqi düşünən qüvvələri ona müharibə elan etdi. Nəticədə, taliblər əldə etdikləri bütün mövqelərini qısa müddət ərzində itirdilər. Bu hadisə bir daha sübut etdi ki, təhlükəsiz şəraitdə mövcud olmağın yeganə yolu tolerantlıq,

başqa dəyərləri, ideyaları və ekzistensial formaları tanımaq və onlara hörmət etməkdir. Əks halda, bütün dünyanı özünə düşmən etmək kimi ölümcül təhlükə qaçılmazdır.

Pakistan və Əfqanıstanda etnik-siyasi və dini-ideoloji zəmində davamlı şəkildə baş verən ciddi münaqişələr, münaqişə tərəflərinin barışmazlığı sindromu, özgə dövlətlərə və hərbi alyanslara məxsus orduların dövlətin gündəlik ictimai-siyasi həyatında aktiv iştirakı, ciddi iqtisadi problemlər, təhsilin aşağı səviyyədə olması, dini ideologiyanın ekstremist səviyyədə insanların düşüncələrinə və duyğularına hakim kəsilməsi, yaxın və uzaq gələcəkdə də hər hansı bir pozitiv etnik-mədəni dəyişikliklərin olacağını deməyə imkan vermir.

İngilislər Hindistan yarımadasında hökmranlıqlarını möhkəmləndirmək üçün həmişə Orta Asiyada Rusiyanın mövcudluğuna qarşı mübarizə aparıblar. Əfqanıstan geostrateji mövqeyinə görə dəfələrlə bu mübarizəyə ev sahibliyi edib. İngilislər və əfqanlar arasında 18, 19 və 20-ci əsrin əvvəllərində üç müharibə oldu. Tarix boyu şimaldan cənuba bütün basqınların əsas marşrutu olan Əfqanıstan bu basqınlar üçün əsgər təminatı ilə də seçilir. Bu basqınlarla döyüş bacarıqlarını inkişaf etdirən əfqanlar 18-19-cu əsrlərdə ingilislərə qarşı öz ölkələrini müdafiə etdilər.

1979-cu ildə sovet işğalına qarşı vətənini müdafiə etməli olan əfqanlar silahlı mübarizədən geri çəkilmədilər. Dövrün ikiqütblü dünyasının digər tərəfi olan ABŞ Sovet İttifaqının Əfqanıstanda uğur qazanmaması üçün bu müharibənin himayədarlığını Pakistan vasitəsilə öz üzərinə götürdü.

Rusların qovulmasından sonra xalq cihadının uğuru yeni hökumətlərin formalaşdırılması ilə bağlı fikir ayrılığına düşmüş yerli liderlərin işə cəlb edilməsinə mane oldu. Xarici düşmənə qarşı mübarizə aparan əfqan xalqı 30 il ərzində öz daxilində mübarizə aparıb. Nəticədə on minlərlə dul qadın və əlil uşaq aclıq və səfalət məngənəsində qaldı. Digər tərəfdən, BMT-nin Narkotiklər Komissiyasının 1999-cu il hesabatında dünyada tiryək istehsalının 73 faizinin

Əfqanıstanda həyata keçirildiyi bildirilərək problemin başqa bir ölçüsünə diqqət çəkilir [54].

Rusiya və Çinin Şanxay Əməkdaşlıq Təşkilatı vasitəsilə Mərkəzi və Cənubi Asiyanın ən mühüm iki ölkəsi olan Hindistan və Pakistana təsir göstərməyə çalışdıqlarını anlayan ABŞ SSRİ-nin əldə edə bilmədiyi bu gücə əks olan mövqe tutdu. 1979-1989-cu illər arasında faktiki işğal prosesi başlasada, 11 sentyabr hücumundan sonra hərəkətə keçən ABŞ, ruslara qarşı hazırladığı Əl-Qaidə kimi təşkilatları və idarəçilərini bəhanə edərək Əfqanıstanda faktiki olaraq var olmaq planını həyata keçirdi.

Şimal bölgəsinin lideri, mücahidlər arasında müstəqil mübarizəsi ilə məşhur olan Əhməd Şah Məsut 2001-ci il sentyabrın 9-da iki ərəb jurnalistin öldürülməsi nəticəsində öldürülüb. Bu hücumdan dərhal sonra ABŞ-da 11 sentyabr hücumları baş verdi. ABŞ Konqresinin 14 sentyabr 2001-ci ildə işğala icazə verən qətnaməsindən sonra ABŞ sentyabrın 18-də Taliban Əmirliyindən Üsamə bin Ladeni tələb etdi, 2001-ci ildə Britaniyanı da özü ilə apardı və Əfqanıstanı təyyarələrlə bombaladı. ABŞ-ın bu münasibəti göstərirdi ki, Əfqanıstana müdaxilə çox əvvəldən planlaşdırıla bilərdi.

Bütün bu hadisələr nəticəsində əfqan cihadından və onun ardınca gedən vətəndaş müharibəsindən təngə gələn əfqan xalqı Talibanı ölkənin birliyinin təmin olunmasında xilaskar kimi görərək, bir çox bölgələri öz iradələri ilə Talibanın idarəçiliyinə təhvil verdi.

Mütəxəssislərin iddialarına görə, ABŞ-ın rəhbərliyi altında Səudiyyə Ərəbistanının maliyyə dəstəyi və Pakistanın təhsil dəstəyi ilə qurulan Talibanın Usamə bin Laden ilə bağlı mövqeyinə görə idarəolunmaz hərəkata çevrilməsi ehtimalı ilk dəfə gündəmə gəldi. ABŞ Taliban üçün problem yarada biləcək bu strukturun daha da şiddətlənmədən “dağıdılması” lazım olduğuna inanaraq, Talibanı bitirmək istəyirdi və Əl-Qaidə bunun pərdəsi idi.

2001-ci ildən sonra ABŞ-ın rəhbərliyi altında formalaşan Əfqanıstan administrasiyası ölkənin əhəmiyyətli bir hissəsinə nəzarəti itirib. Əfqan

administrasiyası dar bir ərazidə ilişib qalıb və xüsusilə kənd yerlərində təhlükəsizlik və nəzarəti təmin etmək baxımından bu gün də davam edən çətinliklərlə üzləşir.

Taliban hərəkatının fəaliyyətini nəzərdən keçirərkən nəzərə çarpan əsas amil ideologiyadır, çünki məhz ideologiya bu hərəkatın fərqli kateqoriyalardan olan üzvləri arasında birləşdirici halqaya çevrilmişdir. Eyni zamanda, bu hərəkatın düzgün idarə olunması və yayılması, həmçinin sözügedən ideologiyanın düzgün təqdim edilməsibacarığına qadir olan xarizmatik lider və fanatik ideoloqun olması olduqca vacib idi.

Taliban hərəkatının yaradıcısı Molla Məhəmməd Ömər hesab edilir. O, Sovet qoşunları Əfqanıstandan çıxarıldıqdan sonra Qəndəhar şəhərində qurduğu mədrəsədə dərs deyirdi. Müharibənin başa çatması ölkəyə sülh gətirmədi, əksinə, hakimiyyət uğrunda siyasi mübarizə kəskinləşdi və etnik zorakılıq gücləndi. Molla Məhəmməd Ömərin dediyinə görə, 1990-cı illərdə Qəndəhar, Herat və Kabil şəhərlərini ələ keçirən tələbələrdən ibarət bir qrup təşkil etmək ideyası ona bir görüntü şəklində gəlmişdi və burada deyilirdi ki, ölkədə sülhün bərqərar olması olduqca zəruridir [32, s.97].

Hərəkat üzvlərinin sözlərinə görə, Molla Məhəmməd Ömər hərbi xidməti və ya siyasi nailiyyətlərinə görə deyil, İslam dininə bağlılığına görə Taliban hərəkatının lideri seçilmişdir. Taliban hərəkatının köhnə döyüşçülərindən olan Molla Həsənin qeyd edirdi ki, “Ömər öz tayları arasında birinci idi”[43].

Hərəkat üzvləri Molla Məhəmməd Öməri Məhəmməd peyğəmbər ilə müqayisə edərək qeyd edirdilər ki, Taliban hərəkatının meydana çıxması Əfqanıstanın parçalanması dövrünə təsadüf edirdi və necə ki ərəb dünyasının daxili parçalanması şəraitində Məhəmməd peyğəmbər sülh təbliğatçısı oldu, eynilə Molla Məhəmməd Ömər də öz İslami ideyaları ilə Əfqanıstanın vahid ideya ətrafında birləşməsi ideyasını təbliğ edirdi. Taliban hərəkatının formalaşması prosesində ideoloq təşkilatın rəhbəri və təbliğatçılıq funksiyalarını özündə birləşdirir və hərəkata maksimum təsir dərəcəsinə malik olaraq həm mənəvi, həm də dövlət

hakimiyyətini təcəssüm etdirirdi.

Müsəlman dövlətlərinin əksəriyyətində dünyəvi rejimlərin ideoloji əsasını təşkil edən Sovet İttifaqının dağılması və kommunizmin süqutu tarixi bir ideoloji və siyasi boşluq yaratdı və İslamçı dairələrin hakimiyyətə gəlməsi üçün imkanlar meydana çıxdı. Bundan başqa, sözügedən regionda islamçı qüvvələrin fəaliyyəti üçün tarixən formalaşmış xüsusiyyətləri, eləcə də onların ideyalarının hansı "zəmin" əsasında qoyulduğunu da nəzərə almaq lazımdır.

Paradoksal olsa da, Taliban hərəkatı hakimiyyətə gələnə qədər Əfqanıstanda islam ideyalarını əsas tutan ekstremizm geniş yayılmamışdı. Əksinə, 1992-ci ilə qədər İslam dini müxtəlif fərqliliklərə malik əfqan tayfaları və xalqlarını birləşdirən bir vasitə rolunu oynayırdı. Əfqanıstan əhalisinin 80%-i İslam dinin sünni təriqətində mövcud olan dörd dini-hüquqi məktəbdən ən liberalı olan Hənəfi məzhəbinə mənsubdur. Onun xarakterik xüsusiyyəti iyerarxiyanın olmaması və mərkəzləşdirilməmiş idarəetmə sisteminin olmasıdır. İcma səviyyəsində identikliyin dövlət səviyyəsində identifiklikdən daha vacib olduğu zəif təşkil olunmuş əfqan cəmiyyətində İslam dininin digər məzhəb və dinlərə, həmçinin müasir həyat tərzinə münasibətdə tolerantlığı ilə səciyyələnən əfqan versiyası meydana çıxmışdı. Burada siyasi komponentlər də zəif inkişaf etmişdi: mərkəzi hökumətin öz təbəələrinin həyatında iştirakı minimal səviyyədə idi və təsir mərkəzi yerli mədrəsələr səviyyəsində cəmləşmişdi. Burada İslam dininin birləşdirici rolu özünü şəriət qanunları əsasında məhkəmə prosesinin aparılmasında, habelə xarici müdaxilə zamanı əfqan millətçiliyinin oyanmasında göstərdi. Bu zaman "cihad" anlayışı tətbiq edilirdi.

Deobandizmin əsas ideoloqları olan Məhəmməd Kazım Nanotavi və Rəşid Əhməd Qanqohi təhsilin köməyi ilə dünyada İslam dəyərlərini dirçəltməyə qadir olan yeni müsəlman nəslini yetişdirməyi qarşıya məqsəd qoymuşdular. Onların ideyası elmi biliklərin dini postulatlarla birləşməsi idi. Deobandizmin əsas ideyaları arasında qadınların cəmiyyətdəki rolunun məhdudlaşdırılması, cəmiyyətin iyerarxik quruluşunun inkarı, şiəliyin tanınmaması kimi məqamları

qeyd etmək olar.

Taliban hərəkatı ilkin Deoband ənənələrindən uzaqlaşmışlar. Əgər deobandi tərəfdarları yeni reallıqlara uyğunlaşmağa çalışırdılarsa, Taliban hərəkatı bunun əksinə olaraq modernləşmənin bütün formalarını rədd edirdi. Həmçinin, deobandizm təlimləri elmi əsasları mübahisə və şübhənin mümkünlüyünü qəbul edirdisə, Taliban təlimləri polemikaları və İslam düşüncəsinin elmi təhlilini qəbul etmirdi.

İslam Əmirliyi liderlərinin fikrincə, ölkədə ilahi şəriət qanunlarının bərqərar olmasında əsas məqsəd təbəələrin hüquqlarının toxunulmaz olduğu, sakinlərin pis əməllərdən uzaq durum ancaq yaxşı işlər görməyə çalışacağı bir cəmiyyət qurmaq idi və bu hədəfin yayılma sahəsi yalnız Əfqanıstan ərazisi ilə məhdudlaşırdı.

Beləliklə, Taliban hərəkatının ideoloji əsaslarını analiz edərək qeyd etmək olar ki, bu hərəkat “ümumi imansızlığın” kökünü kəsməyi və milli İslam dövləti qurmağı özü üçün ilkin və əsas məqsəd kimi seçmişdir. Bu ilkin məqsəd hələ də qüvvədə qalır. Belə ki, 2016-cı ildə Taliban hərəkatının yeni lideri olmuş Heybətullah Axundzadə 2019-cu ilin əvvəlindəki illik çıxışında bildirmişdi ki, İslam Əmirliyi bütün əfqanlar üçün məqbul olan suveren, islami və əhatəli hökumət yaratmağa çalışır [10].

Deobandizm cərəyanının sərt qaydaları ilə tanış olan Taliban hərəkatının nümayəndələribu qaydaları bütün ölkə ərazisində yaymağa başladılar. Taliban hərəkatı məcbur oldu ki, puştunların”Paştunvali” adlanan şərəf kodeksinin qadını vərəsəlik hüququndan məhrum edən, dul qadını yalnız vəfat etmiş ərinin qohumları ilə evlənməyə məcbur edən və s. müddəalarını faktiki olaraq ləğv etsin [23, s.119-120].

Eyni zamanda, puştunlar arasında Qurani-Kərimin qadına vərəsəlik hüququ verən, onun miras payını müəyyən edən, ərinin ölümündən sonra dul qadın üçün müəyyən bir seçim azadlığı təmin edən müddəaları və hədisləriyayılmağa və tətbiq olunmağa başladı. Hadisələrin bu cür inkişafı göstərdi ki, Taliban hərəkatının rəhbərliyinin yürütdüyü siyasətdə islam faktoru etnik faktordan üstündür.

Taliban hərəkatı 1999-cu ilin yazında Novruz bayramını və bununla bağlı ayinləri, xüsusən də məzarlara və digər müqəddəs yerlərə ehtiram göstərilməsini, Məzari-Şərifdə yerləşən "Ruzai Şərif"in ziyarət edilməsini qadağan etdi.Əfsanəyə görə, burada dördüncü xəlifə Əlinin qalıqları dəfn olunmuşdu. Taliban hərəkatı bu ibadətin icrasında bütpərəstliyin əlamətləri olduğunu bildirirdi. Həmin ilin sonunda şiələr tərəfindən ən müqəddəs dərəcəyə yüksəldilmiş İmam Hüseynin şəhadət günü ilə bağlı mərasimlərin keçirilməsinə qadağa qoyuldu. Talibanın şiələrə qarşı qadağatədbirləri təkcə dini mülahizələrdən deyil, həm də siyasi mülahizələrdən irəli gəlirdi, çünki şiəlik Talibanın apardığı islamlaşdırma siyasətinə uyğun gəlmirdi.

Taliban hərəkatı Əfqanıstan cəmiyyətinin şəriət prinsipləri əsasında yenidən qurulmasının zəruriliyini bəyan edən ilk hərəkat deyildi. Mücahidlərin hərbi-siyasi qrupları 1970-1980-ci illərdə tərtib etdikləri proqram və şüarlarda Taliban hərəkatının şüarlarından çox az fərqlənən müddəalar irəli sürürdülər [9, s.41-48].

Taliban hərəkatının liderlərinin əksəriyyəti öz fəaliyyətinə tərkibində yalnız puştunların olduğu qrupların səhra komandirləri kimi başlamışlar.1992-ci ilin aprel ayında paytaxt Kabili işğal edən mücahidlər Əfqanıstanı İslam dövləti elan etdi, əvvəlki siyasi partiyalar qadağan edildi, bütün keçmiş dünyəvi dövlət qurumları ləğv edildi və universitetlər bağlandı. Qadınlar çadra örtmək məcburiyyətində qaldılar və onlara dövlət idarələrində, radio və televiziyada kişilərlə birlikdə oxumaq və işləmək qadağan edildi. Rəbbani bir sıra dekretlər verdi ki, burada dövlət idarəçiliyinin islam əsasları yaradıldı, şaxələnmiş şəriət məhkəmələri sistemi bərpa edildi və əhali müsəlman davranış normalarınariayət etməyə məcbur edildi. Hətta mücahidlər tərəfindən açıq edamlar da həyata keçirilirdi. Belə ki, 1992-ci ilin sentyabr ayında İslam məhkəməsinin hökmü ilə üç cinayətkar Kabilin mərkəzi parkında açıq şəkildə asılmışdı.

Şimal Alyansının nəzarətində olan ərazilərdə də şəriət normaları tətbiq edilirdi. Burada musiqi dinləmək qadağan idi. Məscidlərin nəzdində olan mədrəsələrdə tədris olunan əsas fənn Quranın ərəb dilindən tərcüməsiz

əzbərlənməsi idi. Bu ərazilərdə cəzalar da kifayət qədər ağır idi. Belə ki, Hacı Baqauddin şəhərinin mərkəzi bazarında yaxalanan narkotik alverçisi edam edilməzdən əvvəl onu küçələrdə kəndirlə aparmış, tüfəngin qundağı ilə şiddətlə döymüşdülər.

Taliban hərəkatı mücahidlərin siyasətini davam etdirirdi. Amma müxtəlif bölgələrdə şəriət normalarının tətbiq olunması dərəcəsi fərqli idi. Puştunların məskunlaşdığı rayonlarda mühafizəkar fundamentalizm onları qorumaq üçün bir vasitə idi. Talibana qarşı güclü silahlı müqavimət göstərən milli azlıqların - taciklərin və həzara şiələrinin yaşadığı ərazilərdə şəriətin tətbiqi kifayət qədər sərt həyata keçirilirdi. Keçmişdə “Kommunizminyuvası” kimi tanınan tacikdilli paytaxtda və ona bitişik ərazilərdə əhalinin islam dini baxımından yenidən maarifləndirilməsi üçün radikal tədbirlər həyata keçirilirdi. Yəni dünya ictimaiyyətinin narahatlığına səbəb olan Taliban hərəkatının puritanlığı Kabillə, qismən də Heratla məhdudlaşırdı.

Qeyd olunmalıdır ki, Taliban hərəkatı “islama yad rejimlərin hakimiyyəti altında olan bütün qardaşlara” yardım göstərməyə hazır olduqlarını bildirmişdir. Rəbbaninin yaratdığı Əfqanıstan İslam Dövlətinin prioritet vəzifələri sırasında “Regionda və dünyada bütün islami azadlıq hərəkatlarına dəstək verilməsi” haqqında müddəa var idi. Ancaq Taliban hərəkatında anoloji fikirlər bir qədər sonra, bu hərəkatın rəhbərliyinin radikallaşmasına töhfə verən və Əfqanıstan hadisələrinin inkişafında həlledici rol oynayan ərəb islam fundamentalistləri ilə əlaqə qurduqdan sonra meydana gəldi.

Taliban hərəkatı tərəfindən şəriət normalarının bütün ölkə ərazisində fəal şəkildə tətbiqinə kömək edən bir sıra məqamlar var idi. Belə ki, hərəkat özünün yüksəliş və genişlənmə mərhələsini yaşayırdı və gücünü ölkənin bütün ərazisinə yaymağa çalışırdı. Taliban liderləri başa düşürdü ki, İslam şüarları olmadan müsəlman ölkəsində hakimiyyəti qazanmaq və saxlamaq mümkün deyil. Taliban hərəkatı 1979-cu il inqilabının ilk mərhələlərində İslam inqilabının ixracını müdafiə edən İran ruhanilərinin mövqeyini, eləcə də B.Rəbbaninin hakimiyyət

uğrunda mübarizə apardığı dövrdəki fikirlərini təkrarlayırdı. Zaman keçdikcə İran rejimi əhəmiyyətli dərəcədə təkamül etdi və B. Rəbbani Əfqanıstan prezidenti olduqdan sonra İslam inqilabı ideyalarından əl çəkdi. Taliban hərəkatı da bütün Əfqanıstan ərazisində hakimiyyəti ələ keçirdikdən sonra oxşar mövqe nümayiş etdirdi [76].

Belə dəyişikliklərin ilk əlamətləri 1999-cu ildə özünü biruzə verki. Belə ki, həmin il 13 qadın məktəbi açıldı və Məzari-Şərifdə qadınların universitetdə təhsil almasına icazə verildi. Kabildə qadınların həkim və müəllim peşəsinə yiyələnmək üçün təhsil almasına icazə verilirdi. Kabildə Elmlər Akademiyası və universitet fəaliyyət göstərməyə başladı. Müəllimin maaşı dövlət qulluqçusunun maaşından 4 dəfə çox oldu. Foto çəkilişi qadağan edilsə də portretçi rəssamlar fəaliyyət göstərirdi. Taliban hərəkatı islamlaşdırma siyasətini həyata keçirərkən ərəb ölkələrindən maliyyə yardımına ümid edirdi. Amma Səudiyyə Ərəbistanının maliyyə dəstəyini itirdikdən sonra bu hərəkat Usama bin Ladenin puluna və əlaqələrinə arxalandı. Nəticədə bu, onların qurduğu rejimin süqutuna səbəb oldu.

# II FƏSİL. MÜASİR MƏRHƏLƏDƏ TALİBLƏRİN REGİONAL TƏHLÜKƏSİZLİYƏ TƏSİR

1990-cı illərin ortalarından Əfqanıstanın böyük hissəsi Taliban hərəkatının nəzarəti altında olmuşdur. Hərəkat işğal etdiyi əraziləri Əfqanıstan İslam Əmirliyi elan etmişdir. Taliban liderləri təbliğ etdikləri "saf İslam" çərçivəsində əhaliyə ictimai-siyasi həyatda məhdudiyyətlər qoyaraq nəzarət etdikləri ərazilərdə sərt teokratik rejim qurmuşdular. "Əl-Qaidə" beynəlxalq terror təşkilatının lideri Usama bin Laden Əfqanıstan ərazisindən "kafirlərə" qarşı zorakılıq aksiyaları hazırlamaq üçün baza kimi istifadə edirdi. 1990-cı illərin sonlarında Əfqanıstan faktiki olaraq beynəlxalq terror fəaliyyətinin ocağına çevrilmişdi.

2001-ci il sentyabrın 11-də "Əl-Qaidə" terror təşkilatının ABŞ-da təşkil etdiyi terror hücumlarından və Taliban liderlərinin "Əl-Qaidə" terrorçularını təslim etməkdən imtina etməsindən sonra ABŞ və Böyük Britaniya Talibana qarşı "Yenilməz Azadlıq" hərbi əməliyyatına başladılar (Enduring Freedom). Əməliyyat BMT Təhlükəsizlik Şurası tərəfindən təsdiqlənmədi. Əhməd Şah Məsud Əfqanıstanda Birləşmiş Cəbhənin yeganə lideri idi. Məsud nəzarət etdiyi bölgələrdə demokratik institutlar qurdu və Qadın Hüquqları Bəyannaməsini imzaladı. Nəticədə bir çox mülki şəxs onun nəzarətindəki ərazilərə qaçdı. Ümumilikdə hesablamalara görə, Talibandan qaçan bir milyona qədər insan var. ABŞ və Böyük Britaniya BMT Təhlükəsizlik Şurasına Əfqanıstanda hərbi əməliyyatların başlanması barədə məlumat verdi və bu hərbi əməliyyatı "BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq fərdi və kollektiv özünümüdafiə hüququnun həyata keçirilməsi" kimi qiymətləndirdi. Əfqanıstanın işğalına təşəbbüs göstərən ABŞ əsas hədəfləri kimi 11 sentyabr hücumlarına görə məsuliyyət daşıyan "Əl-Qaidə" terror təşkilatının liderlərinin ələ keçirilməsini, Əfqanıstanın əksər bölgələrinə nəzarət edən Taliban rejiminin devrilməsini qeyd edirdi.

## 2.1. 11 sentyabrdan sonra ABŞ rəhbərliyi altında beynəlxalq koalisiyasının taliblərə qarşı müharibəsi

Əməliyyat 2001-ci il oktyabrın 7-də başladı. İlk zərbədə 40 döyüş təyyarəsi iştirak etdi; ABŞ və Böyük Britaniya gəmilərindən təxminən 50 qanadlı raket atıldı. "Yenilməz Azadlıq" əməliyyatının ilk ayı ərzində hərbi əməliyyatlar sadəcə ABŞ təyyarələri tərəfindən Taliban hərəkatının müxtəlif hərbi hədəflərinin havadan bombardman edilməsi ilə məhdudlaşdı.

2001-ci ilin noyabrında Kabilin süqutundan sonra Birləşmiş Millətlər Təşkilatı əsas əfqan fraksiyalarını, xüsusilə Şimal Alyansını və keçmiş kralın (lakin Taliban deyil) rəhbərlik etdiyi qrupu Almaniyanın Bonn şəhərində keçiriləcək konfransa dəvət edir. 5 dekabr 2001-ci ildə fraksiyalar BMT Təhlükəsizlik Şurasının 1383 saylı qətnaməsi ilə təsdiq edilmiş Bonn sazişini imzaladılarBonn sazişindən sonra BMT Təhlükəsizlik Şurasının dekabrın 20-də Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrini və ya ISAF-ı təsis edən 1386 saylı qətnaməsi qəbul edilir.

Tora Boradan sonra ilk böyük quru hücumu və ən böyük əməliyyat olan Anakonda əməliyyatı Qardez şəhərinin (Paktiya əyaləti) cənubundakı Şah-i-Kot vadisində təxminən səkkiz yüz Əl-Qaidə və Taliban döyüşçüsünə qarşı başladılıb. İki minə yaxın ABŞ və min əfqan əsgəri yaraqlılarla döyüşür əvəzində Pentaqon planlaşdırıcıları hərbi və kəşfiyyat resurslarını Əfqanıstandan uzaqlaşdıraraq "terrorla müharibədə" ABŞ-ın əsas təhlükəsi kimi qeyd olunan Səddam Hüseynin İraqı istiqamətində köçürməyə başlayır.

ABŞ Konqresi 2001-2009-cu illərdə Əfqanıstana humanitar və yenidənqurma işlərinə 38 milyard dollardan çox vəsait ayırıb[75].

Əfqanıstanın Müvəqqəti Administrasiyasının sədri Kərzai ölkənin keçid hökumətinə başçılıq etmək üçün seçilib Durrani puştunlarının güclü Popalzai

qəbiləsinin lideri olan Karzai 11 sentyabr hücumlarından sonra Talibana qarşı puştun müqavimətini təşkil etmək üçün Pakistandan Əfqanıstana qayıtdı.

Döyüş əməliyyatlarında iştirak edən ABŞ,Böyük Britaniya, Almaniya, İtaliya, Fransa, Polşa, Rumıniya, Avstraliya, İspaniya və Türkiyədən ibarət koalisiya mövcud idi , ABŞ komandanlığı Taliban hakimiyyətini qəbul etməyən və ona qarşı mübarizə aparan “Şimal Alyansı” (taciklər, özbəklər, şiələr-hazaralar) ilə sıx əməkdaşlıq edirdi. Bir aylıq bombardmandan sonra Talibanın döyüş qabiliyyəti əhəmiyyətli dərəcədə azaldı. Noyabr ayının sonuna qədər yalnız bir böyük şəhər-Qəndəhar Talibanın nəzarəti altında qaldı ki, bu şəhər də dekabrın 7-də süqut etdi. Taliban tərəfdarlarının üzvlərinin bir hissəsi qonşu Pakistana qaçdı, bir hissəsi isə (o cümlədən, Taliban lideri Molla Məhəmməd Ömər) dağlara çəkildi. Qəndəharın ələ keçirilməsi hərbi əməliyyatların əsas mərhələsinin bitməsini simvolizə edirdi.

Əfqanıstanda yerləşdirilən Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri birinci mərhələdə ISAF-a növbəli şəkildə NATO-nun ayrı-ayrı üzv ölkələri rəhbərlik edirdi; 2003-cü ilin avqust ayında NATO İSAF kontingentinin komandanlığını öz üzərinə götürməyə razılaşdı. Əvvəlcə ISAF-ın məsuliyyət zonası yalnız Kabilə qədər uzanırdı, lakin zaman keçdikcə bu zona ölkənin bütün digər əyalətlərinə qədər yayılmağa başladı. ISAF-ın ilk komandiri britaniyalı general Con Makkoll olmuşdu və 2007-2014-cü illərdə bu vəzifəni ABŞ hərbçiləri icra etmişlər. Ümumilikdə, 2001-ci ildə hərbi əməliyyatın başladığı ilk vaxtlardan 2015-ci ilin sonuna qədər İSAF-a dünyanın 50 ölkəsinin silahlı qüvvələrinin bölmələri (28 NATO və alyansın 22 tərəfdaş ölkəsi) daxil idi ki, onlardan ən böyük hərbi kontingent məhz ABŞ-a məxsus idi. 2011-ci ildə hərbi əməliyyatların pik nöqtəsi zamanı ISAF hərbçilərinin maksimum sayı 132,500 hərbçi olmuşdu ki, onlardan 101,000 nəfəri məhz ABŞ hərbçiləri idi.

Əfqanıstanda yerləşdirilən Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri ilə olan sazişə əsasən, əgər Taliban zorakılıqdan çəkinərsə tərəflər ABŞ-ın Əfqanıstandakı qoşunlarının sayını 135 gün ərzində 12 min nəfərdən 8600 nəfərə endirəcəyi, bundan sonra isə 14 ay ərzində bütün ABŞ və NATO qüvvələrini ölkə

ərazisindən çıxarmağa davam edəcəkləri barədə razılığa gəlmişlər. Bundan əlavə, saziş "daimi və hərtərəfli atəşkəs"i nəzərdə tuturdu. Sənəd Əfqanıstan üzrə dialoq çərçivəsində Taliban və Əfqanıstan hökuməti arasında birbaşa danışıqları nəzərdə tuturdu. Eyni zamanda, ABŞ Talibanın sazişin şərtlərinə əməl etmədiyi təqdirdə müqaviləni ləğv edəcəyini bildirmişdir.

Taliban isə öz növbəsində Əfqanıstan ərazisindən ABŞ və müttəfiqlərinin təhlükəsizliyini təhdid edən hərəkətlər üçün istifadəyə icazə verməyəcəyinə dair söz vermişdir. Bu bənd ciddi şəkildə yerinə yetirilsə də Taliban qüvvələri ilə Əfqanıstan təhlükəsizlik qüvvələri arasında toqquşmalar davam etməkdədir. Taliban hərəkatı rəsmi Kabilin təklif etdiyi danışıq iştirakçılarının siyahısını rədd edərək, Əfqanıstan üzrə məsləhətləşmələrin başlanmasını qeyri-müəyyən müddətə təxirə salmışdır.

Əfqanıstandakı hərbi əməliyyatlar ABŞ tarixində ən uzun sürən xarici hərbi kampaniya hesab edilir. ABŞ Müdafiə Nazirliyinin məlumatına görə, 2001-ci ilin oktyabrından Əfqanıstanda xidmət edən ABŞ əsgərlərinin ümumi sayı 800 min nəfər olmuşdur. Nazirlik Əfqanıstan hərbi əməliyyatlarında öldürülən ABŞ hərbi qulluqçularının sayının 2352 nəfər olduğunu bildirsə də, SIGAR (Special Inspector General for Afghanistan Reconstruction) bu rəqəmin bir qədər yüksək-2443 nəfər olduğunu təxmin edir.

Nazirliyin məlumatına əsasən, bu əməliyyatlarda yaralanan hərbi qulluqçuların sayı 20,000 nəfərdir (SIGAR bu rəqəmin 20,666 nəfər olduğunu bildirir [77].




Braun Universitetinin statistikasına əsasən, Əfqanıstanda NATO-ya üzv olan digər dövlətlərin hərbi qulluqçuları da daxil olmaqla, 1144 nəfər əsgər həlak olub. Əfqanıstandakı müharibənin ABŞ üçün ümumi əməliyyat xərcləri Əfqanıstan və Pakistandakı əməliyyatlar da daxil olmaqla 2 trilyon dollardan çox qiymətləndirilir.




SIGAR-ın Müdafiə Nazirliyinə istinadən verdiyi 2021-ci il hesabatında deyilir ki, ABŞ təkcə hərbi əməliyyatlara təxminən 837 milyard dollar xərcləyib.

SIGAR-ın məlumatına görə, 2002-ci ildən bəri ABŞ Əfqanıstanın yenidən qurulması proqramlarına 145 milyard dollardan çox vəsait ayırıb[42].






2001-ci ilin noyabr-dekabr aylarında Taliban hərəkatının hakimiyyətdən devrilməsindən sonrakı dövr ölkə üçün həm müsbət nəticələr, həm də məyusluqlar gətirdi. Aparılan tədqiqatlar və sorğular göstərir ki, əfqan respondentlərin 54%-i "ailələrinin bu gün Taliban rejimi dövründəkindən daha yaxşı vəziyyətdə olduğunu" düşünür, 78%-i isə "demokratiyada müəyyən problemlər ola bilər, amma o, istənilən digər idarəçilik formalarından ən yaxşısıdır" fikri ilə razılaşırdı [55, s.43-100].

## 2.2. Müasir mərhələdə hərəkatın Əfqanıstanda yenidən güclənməsi və regional təhlükəsizlik

Əfqanıstan coğrafi mövqeyi və təbii resursları ilə regionun geosiyasi, geoiqtisadi baxımdan əhəmiyyətli dövləti olduğundan burada baş verən istənilən siyasi proses bütün regionun təhlükəsizliyinə təsir edir. Buna görə də son zamanlar Taliban hərəkatının ölkədə yenidən güclənməsi dünya ictimaiyyətinin diqqət mərkəzində olan bir məsələyə çevrilmişdir.

Əfqanıstanda baş verən hadisələri analiz etmək üçün diqqət yetirilməli olan əsas faktorlardan biri regiondan kənar aktorların bu proseslərdə dolayı iştirakıdır. Əfqanıstanda xüsusi maraqlara sahib olan Pakistan burada baş verən proseslərə ciddi təsir edir. Son üç onillikdə Pakistan Əfqanıstan siyasətinə əsasən Taliban hərəkatı vasitəsilə təsir edir. Bu hərəkatın formalaşması, Əfqanıstanda hakimiyyətə gəlməsi və son illər yenidən güclənməsi Pakistanın adı ilə əlaqələndirilir. Baxmayaraq ki, Pakistan Taliban hərəkatının törətdiyi terror aktlarını və həyata keçirdiyi ekstremist fəaliyyətini tənqid edir və bunlarla heç bir əlaqəsi olmaması fikrini mütəmadi olaraq səsləndirir, amma bu hərəkatla siyasi əlaqələrini gizlətmir. Pakistan rəsmiləri qeyd edirlər ki, Taliban hərəkatı ilə rəsmi İslamabad arasında mövcud olan yaxın siyasi münasibətlər Əfqanıstanda vəziyyətin stabilləşməsi üçün istifadə olunur və bunun əyani sübutu kimi 2020-ci ilin fevral ayında Taliban hərəkatı ilə ABŞ arasında razılaşmanın əldə olunmasında oynadıqları rolu

vurğulayırlar [77].

Əfqanıstan bir ölkə olaraq çox heterogendir, buradakı siyasi şərait və şərtlər kaleydoskopun nümunələri kimi müxtəlifdir. Həmçinin, Əfqanıstanda hər hansı təsadüfi müzakirə dərhal şikayətlər axınına çevrilir və onların çoxu 2001-ci ildən sonrakı keçid dövründə buraxılmış konkret səhvlərdən irəli gəlir. Bu problemlər sırasında 5 problemi xüsusi vurğulamaq lazımdır.

1. Zəif hökumət

Əfqanıstan yeni yaradılmış siyasi institutlarını öz zəif cəhətləri ilə yükləmişdi. 2001-ci ilin dekabrında imzalanmış Bonn sazişi 29-a qədər hökumət institutunun yaradılmasını nəzərdə tuturdu, amma bu institutların 6-8 sayda olması kifayət edirdi. Əfqanıstanda siyasi institutların çox olması müxtəlif siyasi fraksiyaların nəzarətində olan qurumlar arasında rəqabətə şərait yaradırdı. Üstəlik, 2004-cü il Əfqanıstan Konstitusiyası güclü prezidentlik sistemi quraraq, icra hakimiyyətinin mərkəzində həddən artıq yüklənmiş bir sistem yaratdı və bu sistemdə prezident gündəliyə gətirməyənə qədər əsas məsələlərin həll edilməmiş qalmasına şərait yaradırdı. Bundan əlavə, ABŞ-ın 2002-ci ildə qəbul etdiyi ISAF missiyasının Kabildən kənarda mövcudluğunu uzatmamaq qərarı Əfqanıstanın yeni lideri Həmid Kərzayini məcbur etdi ki, vilayətlərdə və bölgələrdə hakimiyyəti silahlı qüvvələrə təklif etsin. Çünki əks halda bu onun mövqelərini möhkəmləndirməsinə mane ola bilərdi. Bu, xüsusilə puştun tayfa strukturlarında qanuni yerli liderlərin marginallaşmasına gətirib çıxardı, nəticədə yeni dövlətin bölgələrdəki nüfuzuna xələl gətirdi, həmçinin tayfaçılıq və yanlış idarəetmə kimi problemlərin yaranmasına səbəb oldu [47, s.128].

2. Korrupsiya

Yanlış idarəetmə və korrupsiya opium kimi narkotik vasitələrin istehsalının canlanması və qanunun aliliyini təmin etməyə qadir məhkəmə sisteminin yenidən qurulmasının uğursuzluğu ilə daha da kəskinləşən problemlərə yol açmış oldu. Həmçinin, qanunçuluq prinsipi olduqca pis səviyyədə idi ki, nəticədə əfqanların əksəriyyəti üçün konstitusiyada və müxtəlif qanunlarda təsbit edilmiş hüquqların

təmin olunması yalnız kağız üzərində qalırdı [65].

Yeddi nəfərdən biri, yəni təxminən 1,677 milyon insan 2009-cu ildə korrupsiya ilə üzləşdiyini bildirmişdi. Əfqan ailələrinin 28%-i hansısa ictimai xidmətdən istifadə etmək üçün rüşvət vermişdilər. 2009-cu ildə bir Əfqanıstan vətəndaşının orta hesabla verdiyi rüşvət 7769 əfqani (156 dollar) idi. Bu məbləğ adambaşına düşən illik gəlirin 502 dollar olduğu ölkədə bu, böyük məbləğ hesab oluna bilər [40, s.10].

Tiryək (opium) ticarətindən əldə edilən gəlirlər təkcə hökumətin əleyhdarları üçün maliyyə mənbəyi deyildi, həm də qismən rüşvətxorluq və korrupsiyaya, eləcə də faydalı əlaqələri olan əfqanlara verilən dəbdəbəli müqavilələrə yol açırdı [58].

Əfqanıstan hakimiyyətinin yuxarı dairələri bu problemlərin həlli yollarını axtarmaq kimi ciddi bir niyyət sərgiləmirdilər. Bu məsələ Əfqanıstan prezidenti Həmid Kərzainin 2010-cu ilin iyul ayında rüşvət tələb etdiyinə görə həbs edilən köməkçisini müdafiə etmək istədiyi vaxt aydın oldu. Prezident təqsirləndirilən şəxsi məsuliyyətə cəlb etməyə çalışan Əfqanıstan və beynəlxalq qurumları qəzəblə tənqid etdi. Həmid Kərzainin Baş qərargah rəisinin sözlərinə görə, prezident bu qurumların "Əfqan sistemi çərçivəsində" fəaliyyət göstərməsini istəyirdi [23].

3. Himayədarlıq və ittifaqlar

Əfqanıstanın siyasi rəhbərliyi ölkənin idarəçiliyini tam şəkildə ələ almaq iqtidarında olmadı. Prezident Həmid Kərzainin fikirləri 1980-ci illərdə Pişəvərdə dövlət hakimiyyətinin olmadığı bir şəraitdə formalaşmışdı və onun siyasət konsepsiyası əslində siyasi xəttin işlənib hazırlanmasını və onun həyata keçirilməsini deyil, himayədarlıq və qohumluq əlaqələrinin qurulmasını nəzərdə tuturdu. 2009-cu ilin sonunda ABŞ-ın Əfqanıstandakı səfiri Karl U. Eykenberri Vaşinqtona teleqramında qeyd edirdi: "Prezident Kərzai əsl strateji tərəfdaş deyil.

Kərzai istər müdafiə, idarəetmə, istərsə də inkişaf sahəsində suveren güclə bağlı istənilən səlahiyyəti həyata keçirmək məsuliyyətindən yayınmağa davam edir. Kərzainin artıq formalaşmış şəxs kimi münasibətlərimizin inkişafının bu mərhələsində ciddi şəkildə dəyişəcəyini gözləmək çox sadəlövhlük olardı" [5].

Kərzainin mövqeyinin faciəsi onda idi ki, zaman keçdikcə onun güclü tərəfləri getdikcə daha az əhəmiyyətli rol oynayır, zəif tərəfləri isə getdikcə daha çox hiss olunan maneələrə çevrilirdi. Problemi mürəkkəbləşdirən digər bir fakt o idi ki, onun ətrafında öz şəxsi niyyətlərinə qulluq edən, sui-qəsdçi və intriqaçı şəxslərlə əhatələnmişdi və bu, 2009-cu ilin avqustunda keçirilən prezident seçkiləri zamanı fəlakətlə nəticələndi. Belə ki, Kərzainin növbəti müddətə ölkə prezidenti seçilməsini təmin etmək üçün səslərin ciddi saxtalaşdırılması onun legitimliyinə həm ölkə daxilində, həm də Qərb ictimaiyyətinin gözündə böyük xələl gətirdi [79].

4. İraq: prioritetlərin seçimi

Dördüncü problem ondan ibarət idi ki, 2002-ci ilin sonundan bütün diqqətini İraqa yönəldən ABŞ ən həlledici məqamda Əfqanıstanı diqqətdən kənarda qoydu və nəticədə bu, Talibanın yenidən Pakistan tərəfindən fəal şəkildə dəstəklənməsinə yol açmış oldu. Burada ilk növbədə ABŞ-ın keçmiş prezidenti Corc Buş, vitse-prezident Dik Çeyni və müdafiə naziri Donald Ramsfeldin Əfqanıstan haqqında utopik düşüncələrə sahib olması məsələsi vurğulanmalıdır, çünki onlar Əfqanıstan kimi onilliklər ərzində xaos içində olan ölkədə sabitliyin bir neçə ay ərzində əldə oluna biləcəyini güman edirdilər. ABŞ-ın öz diqqətini İraqa yönəltməsinin Əfqanıstan üçün nəticələri ciddi və qalıcı oldu. 2007-ci ildə ABŞ silahlı qüvvələrinin Qərargah Rəisləri Komitəsinin sədri admiral Maykl G. Mullen bəyan etdi ki, “Biz Əfqanıstanda əlimizdən gələni edirik. İraqda isə biz üzərimizə düşəni edirik” [16].

Bu da rəsmi Vaşinqton tərəfindən prioritetlərin nə dərəcə səhv müəyyən edildiyinin nümunəsidir.

5. Üsyançıların genişlənən fəaliyyəti

Nəhayət, sonuncu problem o idi ki, Əfqanıstan mütəmadi olaraq Taliban hərəkatının üsyanları ilə üzləşirdi. Əfqanıstan əhalisinin böyük bir hissəsi üsyançılar tərəfindən soyğunçuluqdan qorunmadıqlarını və dövlət qurumlarının onlara kömək edə bilməyəcəyini və ya kömək etmək istəmədiyini anlayaraq qorxu içində yaşayırdılar. Korrupsiya və yanlış idarəçilik kimi problemlərin hələ də

mövcud olması bir çox vətəndaşın Həmid Kərzai hökumətini dəstəkləməkdən imtina etməsinə səbəb olmuş və mülki əhali arasında olan itkilər Əfqanıstanla NATO ilə gərginliyə gətirib çıxarmışdı [36].

Lakin üsyanlar hələ bu problemlər ortaya çıxmamışdan əvvəl artıq başlamışdı. Belə ki, Taliban hərəkatının dirçəlişinin ilk siqnallarından biri ABŞ-ın İraqa müdaxiləsinin başlamasından cəmi bir həftə sonra, 27 mart 2003-cü ildə Qəndəhar yaxınlığında Qırmızı Xaç zabiti Rikardo Munqiyanın öldürülməsi oldu [46, s.214].

Üsyançıların bu cür hərəkətləri Pakistanın Əfqanıstanın keçid dövrünə ən dağıdıcı şəkildə müdaxilə etmək niyyətini açıq şəkildə əks etdirirdi [45].

2007-ci ilin avqust ayında Pakistan prezidenti Pərviz Müşərrəf Kabilə səfəri zamanı açıq şəkildə etiraf etmişdi ki, "Şübhə yoxdur ki, əfqan yaraqlıları Pakistan torpağından dəstək alır. Bizim bölgənizdə qarşılaşdığınız əsas problem ondan ibarətdir ki, bu dəstək bizim tərəfimizdən verilir" [60].

Suveren dövlət kimi Pakistan, şübhəsiz ki, öz ərazisinin bu şəkildə istifadə edilməsinin qarşısını ala biləri. Təəssüf ki, o bunu etmədi və faktlar bunu göstərir ki, Taliban hərəkatı Pakistan hərbçiləri tərəfindən fəal şəkində dəstək almağa davam edirdi.

Pakistanın Taliban hərəkatına dəstəyi ABŞ və Əfqanıstanı qəzəbləndirirdi. 2010-cu ilin may ayında yayılan məlumatda qeyd olunurdu ki, "Son kəşfiyyat məlumatlarına görə, Taliban döyüşçüləri və müxtəlif silahlarla dolu yük maşınları Pakistanın nəzarətində olan keçid məntəqələrindən keçərək ABŞ hərbi qulluqçularını öldürmək üçün Əfqanıstana asanlıqla buraxılmışlar" [13, s.367].

Pakistanın Taliban hərəkatına olan dəstəyinin taliblər üçünböyük əhəmiyyətə malik olmasını diqqətdən qaçırmaq olmaz, çünki Barfildin də dediyi kimi, "Əgər Pakistan 2001-ci ildə Molla Ömərə qarşı etdiyi kimi dəstək siyasətini nə vaxtsa dəyişsə, Əfqanıstandakı üsyançılara ölümcül zərbə vurulacaq" [10, s.328].

Pakistan Taliban hərəkatının Əfqanıstanda aparıcı gücə çevrilməsinə nail olmaqla burada öz təsir gücünü artırır,regionda geosiyasi maraqlarını təmin edir və

burada əsas rəqibləri olan Hindistan və İranın öz nüfuz dairəsini formalaşdırmaq cəhdlərinin qarşısını almağa çalışır.

Əfqanıstanda baş verən proseslərdə birbaşa iştirak edən digər kənar aktor ABŞ-dır və bu ölkənin Əfqanıstanda hərbi mövcudluğunu dayandırmaq qərarı onun burada siyasi mövcudluğunun qarşısını almamamqadadır. Çünki, ABŞ regionda, xüsusən də Əfqanıstanda ciddi geostrtaeji maraqlara malikdir və buna görə də ABŞ-ın yeni Taliban hökuməti ilə işləməyə davam edəcəyini vurğulamaq olar. ABŞ öz hərbi qüvvələrini Əfqanıstandan çıxarmaqla regionun təhlükəsizliyinin təmin olunması məsuliyyətini rəqibləri Çin, Rusiya, Hindistan və İran ilə bölüşməyə çalışır.

Əfqanıstanda siyasi proseslərdə birbaşa iştirak edən digər dövlət Rusiyadır və onun bu ölkə üzrə yürütdüyü siyasətin əsasını təhlükəsizlik maraqları təşkil edir. Rusiyanın son illərdə Əfqanıstan üzrə siyasətinin əsas məqsədi münaqişə tərəfi olan qüvvələri kompromisə gətirmək və beləliklə, bütün ölkə ərazisində dayanıqlı sülhə nail olmaqdır. Bu məqsədlə 2021-ci ilin mart ayında Rusiya Əfqanıstan münaqişəsi ilə bağlı beynəlxalq konfransa ev sahibliyi etmiş, bu konfransda rəsmi əfqan hökuməti, Taliban hərəkatının nümayəndələri, eyni zamanda ABŞ, Pakistan, İran, Çin, Hindistan nümayəndələri iştirak etmişdir. Danışıqlardan sonra imzalanmış Rusiya, ABŞ, Çin və Pakistanın birgə bəyanatında qeyd olunurdu ki, konfrans iştirakçıları münaqişə tərəflərini zorakığılı dayandırmağa çağırır və bəyanatı imzalayan dövlətlər Talibanın hakimiyyətdə olduğu dövrdə Əfqanıstanda mövcud olmuş İslam Əmirliyinin bərpasını müdafiə etmirlər [31].

Hindistan Taliban hərəkatının Əfqanıstanda yenidən güclənməsində maraqlı deyil. Çünki, Hindistanbu regionda əsas rəqibi olan Pakistanın Taliban hərəkatı ilə yaxınlğından ehtiyat edir və öz təhlükəsizlik maraqlarını təmin etməyə çalışır.Hindistan Əfqanıstan münaqişəsinin zorakılıq yolu ilə yox, ancaq danışıqlar yolu ilə və beynəlxalq aktorların iştirakı ilə nizamlanmasında maraqlıdır, bu istiqamətdə Əfqanıstanda daimi sülhün bərqərar olması üçün bütün təşəbbüslərə siyasi-diplomatik dəstək verir.

Yaxın Şərq regionunda siyai, iqtisadi və təhlükəsizlik maraqları olan Çin Əfqanıstandasabitliyinin yaradılmasında olduqca maraqlıdır. Burada əsas faktor Çinin milli təhlükəsizlik maraqları ilə bağlıdır. Belə ki, Çinqonşu Əfqanıstandan yayılan islam fundamentalizminin onun Sincan bölgəsində yaşayan müsəlmanlar arasında dini ekstremizmi gücləndirəcəyindən ehtiyat edir. Çin ABŞ-ın Əfqanıstan üzrə siyasətini tənqid etsə də, ABŞ hərbi qüvvələri buranı tərk etdikrən sonra Əfqanıstanda meydana çıxacaq boşluğun yaradacağı neqativ nəticələrdən ehtiyat edir.

Əfqanıstanda mövcud olan xaos həm də Çinin iqtisadi maraqlarını təhlükə altına salır. Çünki, burada baş verən istənilən siyasi proses birbaşa Çinin təşəbbüskarı olduğu və böyük vəsait yatırdığı "Bir kəmər - Bir yol (Belt and Road İnitiative, BRI)" qlobal layihəsinə təsir edir. Çin rəsmiləri Əfqanıstanda münaqişənin kənar güclərin müdaxiləsi olmadan yalnız daxili milli barışığın əldə olunması ilə nizamlanmasının tərəfdarı olduğunu bildirirlər. Ümumiyyətlə, Çin Əfqanıstan ilə bağlı praqmatiksiyasətyürüdür və Taliban hərəkatı da daxil olmaqla ölkənin əsas hərbi-siyasi qüvvələri ilə müəyyən səviyyədə münasibətlər qurmuşdur.

İran Əfqanıstanla bağlı xüsusi maraqlara malikdir. Burada baş verən istənilən hadisə İranın xarici siyasətinə təsir edir və maraqları ilə toqquşma yarada bilir. ÇünkiƏfqanıstanda fəaliyyət göstərənradikal ideologiyalı qruplar İranın təhlükəsizliyini və ərazi bütövlüyünü təhdid edir. İran həm öz vasitələri ilə həmin qruplaşmalara qarşı mübarizə aparır, həm də məsələnin daha dərindən həll olunması üçün Əfanıstanda siyasi stabilliyin yaranmasına maraq göstərir. İran Əfqanıstanda baş verən qeyri-stabilliyin siyasi, iqtisadi, demoqrafik fəsadları ilə üzləşməkdən çəkindiyi üçün buradaTaliban hərəkatının rəhbərliyi altında olacaq sabit hökumətin yaradılması İranın maraqlarına mane olmur.

Səudiyyə Ərəbistanı Taliban hərəkatının son illər Əfqanıstanda güclənməsi faktına münasibətinidaxili və kənar aktorların vasitəsilə həyata keçirilir. Yaxın Şərq regionundaəsas aktorlardan hesab edilən Səudiyyə Ərəbistanı Əfqanıstan

siyasətində Pakistanla müttəfiqlik edir və iki dövlət bu istiqamətdə uzlaşdırılmış siyasət yürütməyə çalışır. Amma Səudiyyə Ərəbistanı və Pakistan Taliban hərəkatına dəstək göstərilməsi məsələsində fikir ayrılığına malikdirlər.

Regionun digər mühüm aktoru olan Qatar Əfqanıstanda baş verən proseslərdə birbaşa iştirak edir və 2020-ci ilin sentyabr ayından Taliban hərəkatı və rəsmi Əfqanıstan hökuməti arasında aparılan danışıqlar prosesinə ev sahibliyi edir və vasitəçi qismində çıxış edir.

Əfqanıstanda baş verən hadisələrdən birbaşa təsirlənən əsas regionlardan biri olan Mərkəzi Asiya regionunun 5 ölkəsi əfqan münaqişənin dinc yolla nizamlanmasının tərəfdarıdır və bu istiqamətdə Özbəkistan beynəlxalq təşəbbüs irəli sürmüşdür. Belə ki, 2021-ci il 15-16 iyulda Daşkənddə beynəlxalq konfrans keçirilmiş və bu tədbirdə Əfqanıstanda daxili böhranın həlli istiqamətində məsləhətləşmələr aparmaq üçün Özbəkistan, ABŞ, Əfqanıstan və Pakistandan ibarət beynəlxalq platformanın yaradılması haqqında razılıq əldə olunmuşdur. Özbəkistanın ehtiyat etdiyi əsas məqam Əfqanıstanda baş verən proseslərin Mərkəzi Asiyaya, xüsusən də Özbəkistana yayılmasıdır və buna görə Özbəkistan Əfqanıstan münaqişəsinin dinc yolla nizamlanmasını dəstəkləyir. Taliban hərəkatına bağlı radikal dini qrupların vəterrorçu təşkilatların geclənməsi İran ilə anoloji olaraq Özbəkistan üçün də ciddi təhlükəyaradır.

Əfqan hökuməti dəfələrlə bəyan etmişdi ki, həmişə dialoqa və ilkin şərtsiz görüşlərə hazırdır, yeganə şərti isə bu danışıqların Əfqanıstan konstitusiyası çərçivəsində aparılması idi. Amma Taliban hərəkatı əfqan hökumətinin dialoq təklifini rədd edərək bildirirdi ki, onlar bu hökuməti oyuncaq hesab edirlər və birbaşa ABŞ-la dialoqa başlamaq istəyirlər. 2018-ci ilin əvvəlində ABŞ prezidenti Donald Tramp qəti şəkildə bəyan etdi ki, Əfqanıstanda Taliban hərəkatı ilə heç bir danışıqlar olmayacaq. Lakin intensiv hərbi əməliyyatlar vasitəsilə Əfqanıstandakı vəziyyəti düzəldə bilməyən Donald Tramp administrasiyası Dövlət Departamentinə Əfqanıstan hökumətinin nümayəndələri olmadan Talibanla birbaşa danışıqlara hazırlığa başlamağı tapşırdı.

29 fevral 2020-ci ildə Qatarın paytaxtı Doha şəhərində ABŞ və Taliban arasında sülh sazişi imzalanmışdır.

2021-ci il avqustun birinci on günlüyündə ABŞ kontingentinin Əfqanıstandan çıxarılması fonunda Taliban hərəkatı Əfqanıstan hökumət qüvvələrinə qarşı hücumlarını gücləndirmişdir. Avqustun 15-də yaraqlılar paytaxta daxil olaraq prezident sarayına nəzarəti ələ keçirmişlər. Avqustun 15-dən 16-na keçən gecə Taliban hərəkatının siyasi ofisinin nümayəndəsi Məhəmməd Naim Əfqanıstanda müharibənin başa çatdığını, ştatda idarəetmə formasının yaxın gələcəkdə aydınlaşacağını bildirib. Prezident Əşrəf Qani "qırğının qarşısını almaq" istəyini əsas gətirərək ölkəni tərk edib. Üç gün sonra o, Birləşmiş Ərəb Əmirliklərindən xalqa videomüraciət etdi və yaxın vaxtlarda vətənə dönəcəyini vəd etdi.

Talibanın nəzarətindən kənarda qalan yeganə əyalət Kabilin şimal-şərqindəki Pənçşirdir. Bu ərazi həm ərazisi, həm də əhalisi baxımından ən kiçik bölgələrdən biridir. Terrorçular tərəfindən öldürülən Taliban əleyhdarı "Şimal Alyansı"nın rəhbəri Əhməd Şah Məsudun oğlu Əhməd Məsudun rəhbərlik etdiyi milis qüvvələri burada nəzarəti həyata keçirməkdədir.

Əhməd Məsudun rəhbərlik etdiyi qüvvələrin say baxımından Taliban qüvvələrindən az olması onların böyük uğur qazanmasının qarşısını alan əsas maneədir. Qeyd olunmalıdır ki, Pənçşir əyaləti öz coğrafi mövqeyi və relyefinə görə ələ keçirilməsi çətin olan bir ərazidir, dəniz səviyyəsindın təqribən 3000 metr hündürlükdə yerləşir və dağlarla əhatə olunmuşdur ki, bu da onun hücum edən tərəf üçün təhlükəli ərazi olmasına şərait yaradırdı.Amma Pənçşir əyalətində yaşayan tayfaların cəsur və döyüşkən olmasına və Taliban hərəkatına qarşı güclü müqavimət göstərməsinə baxmayaraq, 2021-ci ilin sentyabr ayında Taliban döyüşüləri bu ərazini ələ keçirdilər.

Əfqanıstanda vəziyyəti mürəkkəbləşdirən və bu düyünün regiona mənfi təsirini şərtləndirən əsas məsələ Taliban hərəkatının digər radikal dini terror qruplaşmaları ilə mövqelərinin toqquşmasıdır. Taliban hərəkatının Əfqanıstanda

fəaliyyət göstərən terrorçu qruplarla münaqişəsi təkcə bu ölkə üçün yox, bütövlükdə Yaxın Şərq və ən əsası da Mərkəzi Asiya regionu dövlətləri üçün ciddi təhlükə mənbəyinə çevrilmişdir.

2001-ci ilin oktyabr ayında ABŞ-ın rəhbərlik etdiyi koalisiya tərəfindən, yəni kənar qüvvələrin müdaxiləsi yolu ilə hakimiyyətdən devrilən Taliban hərəkatının Əfqanıstanda yenidən hakimiyyətə gəlməsi faktı qlobal və regional güclər tərəfindən qəbul edilir. Öz hərbi-siyasi və ideoloji gücünü yenidən formalaşdıran Taliban hərəkatı təxminən 85 min nəfərlik silahlı döyüşçüyə malikdir [32].

Həm ABŞ, həm də rəsmi Əfqanıstan hökuməti ölkədə böhran və qarşıdurmanın güc yolu ilə həll olunaraq aradan qaldırılmasının qeyri-mümkün olmasını və ölkədə davamlı sülhün bərqərar olması üçün tərəflər arasında dialoqun aparılmasını dərk etdiyindən Taliban hərəkatı ilə danışıqlar aparılmasını labüd görür. Məhz buna görədir ki, Taliban hərəkatı ilə ABŞ arasında birbaşa danışıqlar 2018-ci ildən başlanmış və 2020-ci ilin fevral ayında tərəflər arasında razılaşma imzalanmışdır. Tərəflər ABŞ əsgərlərinin 14 ay ərzində Əfqanıstandan tamamilə çıxartması, Taliban hərəkatının “Əl-Qaidə” və digər terrorçu təşkilatlarla əlaqəsinin kəsilməsinə dair öhdəlik götürmüşlər. 2021-ci ilin aprel ayında isə ABŞ prezidenti Co Bayden Əfqanıstandakı ABŞ hərbi qüvvələrinin 2021-ci ilin sentyabrın 11-dək ölkədən çıxarılacağına bəyanat vermişdir.

Rəsmi Əfqanıstan hökuməti ilə Taliban hərəkatı arasında danışıqlar 2020-ci ilin sentyabr ayında Qatarın paytaxtında baş tutmuş və beynəlxalq vasitəçilərin iştirakı ilə aparılan danışıqlar prosesi uğursuzluqla nəticələnmişdir. Qeyd etmək lazımdır ki, Əfqanıstanda davamlı sülhə və stabilliyə nail olmaq üçün münaqişə edən bütün tərəflər konsensusa gəlməli və yeni bir siyasi sistem formalaşdırılmalıdır.

Əfqanıstan vətəndaşları ölkədə yeni ədalətli seçkilərin keçirilməsi, insan hüquq və azadlıqlarının qorunması, iqtisadiyyatın bərpası, Əfqanıstanın daha demokratik qaydalarla idarə olunmasını davamlı sülhün təmin edilməsinin əsas

şərti kimi qəbul edirlər. Taliban hərəkatı da son illər öz taktikasında dəyişiklik etmiş və rəqib və ya düşmən hesab etdiyi ölkələr və qüvvələrlə dialoq qurmağa çalışmışdır. Taliban hərəkatı həmçinin regionda böyük maraqlara malik olan Rusiya və Çin ilə də fəal danışıqlar aparmaqdadır. Taliban hərəkatının diplomatiyadan fəalistifadə etməsi bir sıra strateji məqsədlər daşıyır: Əfqanıstanda yenidən ələ keçirdiyi hakimiyyətə münasibətdə loyallığı təmin etmək, beynəlxalq səviyyədə legitimlik problemləri ilə üzləşməmək, regional və qlobal səviyyədə inteqrasiya proseslərində iştirak etmək, Əfqanıstanın iqtisadiyyatı və sosial həyatının bərpası üçün maraqlı ölkələri investisiya yatırmağa cəlb etmək.

Taliban hərəkatının son illər yenidən iqtidara gəlməsi və ölkə ərazisinin böyük hissəsinə nəzarəti ələ keçirməsi ABŞ qoşunlarının Əfqanıstandan tamamilə çıxarılması fonunda baş vermişdir. ABŞ hesab edirdi ki, Əfqanıstandakı ABŞ hərbi qoşunları çıxarıldıqdan sonra burada xaos və vətəndaş müharibəsi başlaya bilər [74].

ABŞ tədqiqatçıları 1989-cu ildə SSRİ qoşunlarının Əfqanıstandan çıxarılmasından sonra ölkədə uzun illərlə davam edən böyük vətəndaş müharibəsi ilə anologiya görərək eyni hadisələrin ABŞ qoşunlarının Əfqanıstandan çıxarılmasından sonra da təkrarlanacağını güman edirdilər.

2016-cı il 21 may tarixində ABŞ pilotsuz təyyarəsi içərisində Taliban hərəkatının lideri Axtar Mansurun olduğu güman edilən avtomobilə raket zərbəsi endirdi. Mayın 22-də Taliban liderinin ölümü ilə bağlı məlumatı hərəkatın yüksək rütbəli komandiri Molla Əbdül Rauf və Əfqanıstanın baş naziri Abdulla Abdulla təsdiqlədi. Taliban hərəkatının lideri Axtar Mənsurun varisi Mövləvi Xeybətullah Axundzadə oldu [49].

2017-ci ilin avqustunda Taliban hərəkatının nümayəndələri ABŞ prezidenti Donald Trampa məktub göndərərək onu ABŞ qoşunlarını Əfqanıstandan çıxarmağa çağırdılar [62], və 9 iyun 2018-ci ildə 17 ildən sonra ilk dəfə Əfqanıstan hökuməti ilə müvəqqəti barışıq elan etdilər ki, bu barışıq iyunun 15-dək davam etdi [64].

İyunun 21-dən 22-nə keçən gecə Taliban hərəkatı Əfqanıstan hökumət qüvvələrinə ilk hücumunu həyata keçirdi [74].

19 avqust 2018-ci ildə Əfqanıstan prezidenti Əşrəf Qani öz Twitter hesabında paylaşım etdi ki, avqustun 20-də Talibana qarşı müharibədə atəşkəs elan edir, bir şərtlə ki, Taliban hərəkatı da atəşkəs rejiminə əməl edəcək [76].

2021-ci ilin yayında ABŞ qoşunlarının Əfqanıstandan çıxarılmasından sonra Taliban qüvvələrinin bütün ölkə ərazisində kütləvi hücumu başladı və nəticədə avqust ayının ortasına qədər artıq ölkənin, demək olar ki, bütün ərazisi hərəkatın nəzarəti altında keçmişdi.

Talibanın ələ keçirdiyi ilk ərazi Pakistanın Cənubi Vəziristan əyaləti olmuşdur. Bu ərazi 2004-cü ildə Taliban qoşunları tərəfindən ələ keçirilmiş, burada yaşayan pakistanlılar ərazidən qovulmuş və 14 fevral 2006-cı ildə rəsmi olaraq Vəziristan İslam Əmirliyinin yaradılması elan olunmuşdur. Amma Vəziristan əyaləti beynəlxalq ictimaiyyət tərəfindən Pakistanın ərazisi kimi tanınır.

Əfqanıstanda Taliban hərəkatının hakimiyyətə gəlməsindən sonra regionda təhlükəsizlik məsələləri yenidən gündəmə gəlmişdir. Qonşu ölkələrdə radikal islamçı qruplaşmaların güclənməsi həm region ölkələrini, həm də dünya ictimaiyyətini narahat edən məqamlardandır. Nümunə olaraq Pakistanda hökumət əleyhinə çıxan “Təhrik-i Taliban Pakistan” qruplaşmasını qeyd etmək olar ki, bu qruplaşma Pakistan dövlət qurumlarını hədəf alaraq zorakılıq aktları törətməyə başlamışlar. “Təhrik-i Taliban Pakistan” qruplaşması vaxtilə Əfqanıstan hüquq-mühafizə orqanları tərəfindən həbs edilən və Taliban hərəkatının hakimiyyətə gəlməsindən sonra həbsdən çıxarılan qruplaşma üzvlərinin hesabına daha da aktivlik nümayiş etdirməkdədir.

Taliban hərəkatı ilə əlaqələri olan “Təhrik-i Taliban Pakistan” qruplaşması ilə mübarizədə Pakistan hökuməti məhz Taliban hərəkatına ümid edir. Əfqanıstan ərazisinin hər hansı terror aktları üçün istifadə olunmayacağına dair ümumi vədlər verən taliblər isə məhz “Təhrik-i Taliban Pakistan” qruplaşması ilə bağlı məsələlərdə Pakistan hökumətini qruplaşma ilə danışıqlar aparmağa çağırırlar.

İndiki zamanda gündəmdə duran əsas məsələlərdən biri Taliban hərəkatının rəsmi hökumət kimi tanınmasıdır. ABŞ başda olmaqla dünya dövlətləri məhz Taliban hərəkatını rəsmi dövlət kimi tanımamaqla hərəkata müəyyən təzyiqlər edə bilir. Hesab edilir ki, Taliban hərəkatı rəsmi hökumət kimi tanınacağı təqdirdə artıq hərəkat özü də beynəlxalq hüququn bir subyekti kimi tanınmış olacaq və onların maliyyə vəsaitlərindən istifadə imkanları genişlənəcək. Bunu nəzərə alaraq, Taliban hərəkatından inklüziv hökumətin qurulması, insan hüquqlarına hörmət, terrorizmlə mübarizə aparılması, humanitar yardım göstərilməsinə imkan yaradılması və Əfqanıstan vətəndaşlarının hərəkət azadlığının təmin edilməsi kimi məsələlərin həll edilməsi tələb olunur. Taliban hərəkatı da öz növbəsində legitim tanınmaya can atır və burada əsas məqsəd iqtisadi ehtiyaclar, dondurulmuş fondların əlçatan olması və maddi yardımlar almaq istəyi ilə bağlıdır. Mətbuat açıqlamalarında da ABŞ və Avropa dövlətlərini öz diplomatik nümayəndəliklərini Kabula geri göndərməyə səsləmişlər. Son vaxtlar Rusiya, Çin və Hindistan rəsmiləri ilə danışıların aparılması Taliban hərəkatının legitim hökumət kimi tanınması istiqamətində addım hesab edilə bilər [78].

Taliban hərəkatı öz liderlərindən ibarət bir hökumət formalaşdıraraq, ABŞ, Rusiya, Çin və Pakistanın birgə bəyanatına zidd olaraq onu Əfqanıstan İslam Əmirliyi adlandırmışlar [79].

Qızların təhsildən uzaqlaşdırılması, qadınların işləmək hüququnun məhdudlaşdırılması, jurnalistlərin təqib edilməsi və döyülməsi, Qadın Məsələləri üzrə Nazirliyin ləğv olunması, ictimai cəzalandırma aktlarının bərpa olunması Taliban hökumətinə olan inamı azaldır. Taliban hərəkatının rəsmi hökumət kimi tanınması üçün qoyulan əsas şərt inklüziv hökumətin qurulması, insan hüquqlarına riayət olunması və Əfqanıstan ərazisinin terror aktlarının planlaşdırılması mərkəzinə çevrilməməsidir [76].

2021-ci il oktyabrın 9-10-da ABŞ və Taliban hərəkatı arasında görüş keçirilmiş, müzakirə olunan əsas məsələlər təhlükəsizlik, terorizmlə mübarizə, qadınların hüquqları ilə bağlı olmuşdur [82].

Oktyabrın 20-də Rusiya, Çin, Pakistan, Hindistan, İran və Mərkəzi Asiya regionu dövlətləri ilə Taliban hərəkatı arasında keçirilən görüş zamanı Rusiya prezidenti Vladimir Putin bildirmişdir ki, o, yeni Kabil hökuməti ilə əlaqələrin qurulması istiqamətində Taliban hərəkatını ekstremist qruplaşma siyahısından çıxarmaq məsələsinə baxır. Rusiya Taliban hərəkatının Əfqanıstanda stabillik yaratmaq cəhdlərini gördüyünü və buna görə də onu hakimiyyətdə olan yeni administrasiya hesab etdiyini bildirir.

Oktyabr və noyabr aylarında müvafiq olaraq Türkiyə və Pakistana edilən səfərlər və keçirilən görüşlər Taliban hərəkatının rəsmi hökumət kimi tanınması istiqamətində atılan addım hesab edilə bilər [81].

## 2.3. Taliban hərəkatının siyasi uzunömürlülüyünün səbəbləri

Əfqanıstan ordusu NATO və ABŞ qüvvələri ilə birlikdə uzun müddət Talibanla mübarizə aparıb. Minlərlə Talibançının ölümünə baxmayaraq, radikal hərəkat öz təsirini ölkənin yeni ərazilərinə yayır.

Talibanın bölgədə təsirinin artmasının ən azı üç səbəbi var.

Birincisi, 2014-cü ilin sonuna qədər NATO və Amerika qüvvələrinin komandanlığı altında beynəlxalq koalisiyanın qüvvələrinin əksəriyyətinin Əfqanıstandan çıxarılması Talibana qarşı hərbi təzyiqin azalmasına səbəb oldu.

Suriya, İraq və Ukrayna hadisələri ilə beynəlxalq ictimaiyyətin diqqətinin yayındırılmasından da “Taliban” yararlanıb.

Taliban Əfqanıstanın müxtəlif bölgələrində sistemli şəkildə hərbi bazaları, regional mərkəzləri və nəzarət-buraxılış məntəqələrini ələ keçirməyə başladı; çoxlu sayda silah-sursat ələ keçirib Əfqanıstan ordusuna qarşı hücumlarda istifadə etdilər. Onlar daha sonra işğal olunmuş ərazilərdə istifadə olunan onlarla zirehli texnikanı ələ keçirə biliblər.

İkincisi, Pakistan ordusunun 2014-cü ilin iyununda Şimali Vəziristan əyalətində başlatdığı əməliyyat ona gətirib çıxardı ki, minlərlə ekstremist, əsasən

özbək və ərəb əsilli insanlar oradan qaçaraq Əfqanıstan sərhəddinə keçiblər və Talibanın sıralarına qoşulublar.

Bəzi məlumatlara görə, Taliban da Pakistanın özündən əhəmiyyətli dəstək alır.

Nəhayət, Əfqanıstan Milli Ordusu son bir ildə müəyyən irəliləyiş əldə etsə də, döyüş təyyarələri və kəşfiyyat məlumatlarına malik deyil.

Taliban həm də Əfqanıstan hökumətindəki siyasi çəkişmələrin, eləcə də müxtəlif səviyyələrdə hakimiyyətin zəifliyinin əlində oynayır [68].

Tacikistanlı politoloq Pərviz Mullojanov hesab edir ki, Əfqanıstan hökumətinin yuxarı təbəqəsi ilə Taliban arasında pərdəarxası sövdələşmə Talibanın sürətli qələbəsinə səbəb olan əsas amil olub. Bütövlükdə isə Kabildə rejimin süqutu ABŞ və Əfqanıstan hökumətinin son iyirmi ildə apardıqları siyasətin iflasa uğraması nəticəsində baş verdi.

Taliban hərəkatının sürətlə və uğurla hakimiyyətə gəlməsi həm bütövlükdə dünya ictimaiyyətində, həm də Əfqanıstanın regiondakı qonşularında ciddi narahatlıq doğurdu. Və yəqin ki, bununla bağlı ən çox verilən suallar qrupu Talibanın bu cür sürətli hərbi və siyasi uğurlarına səbəb olan amillər və səbəblərlə bağlıdır. Necə oldu ki, təchizat və təlim üçün on milyardlarla dollar xərcləyən Əfqanıstan ordusu və polisi ölkəni demək olar ki, müqavimətsiz Talibana verdi? Niyə ölkənin əksər əyalət və şəhərləri istefa verərək Talibanın nəzarətinə keçdiyi halda, bütövlükdə əhali hökumətin müdafiəsinə qalxmadı? Nə səbəbə görə nə iqtidar, nə də ölkənin müxalifəti və vətəndaş cəmiyyəti Talibanın hakimiyyətə gedən yolunda ən azı bir növ müdafiəni səfərbər edib təşkil edə bilməyib?

Bu suallara cavab vermək üçün əyalət və şəhərlərdə hakimiyyətin ötürülməsi mexanizminin əslində necə göründüyünü daha ətraflı nəzərdən keçirək. Biz həmçinin Əfqanıstanda son iyirmi ildə - yəni NATO və ABŞ-ın bu ölkədə mövcud olduğu dövrdə müşahidə olunan əsas hadisələr və tendensiyalar üzərində qısaca dayanacağıq.

Bu gün Əfqanıstandan hər gün yeni faktların və məlumatların axını artır ki,

bu da bu ölkədə hakimiyyətin Taliban hərəkatına keçməsi üçün yaxşı hazırlanmış və planlaşdırılmış ssenarinin həyata keçirildiyini göstərir. Başqa sözlə, Talibanın bir tərəfdən Əfqanıstan hökumətinin bir hissəsi ilə hərbi komandanlıq, digər tərəfdən isə Taliban arasında ilkin razılaşmalar çərçivəsində ölkə üzərində hakimiyyəti əldə etdiyini söyləmək üçün artıq bütün əsaslar var.

Daha geniş mənada söhbət ABŞ və Pakistan arasında Taliban hərəkatının legitimləşdirilməsi və sonradan onun "sülh prosesi" adlandırılan proses çərçivəsində hakimiyyətə gəlməsi üçün imkan yaradan bir sıra sazişlərdən gedir. Müqavilə həm Əfqanıstan hökumətinin, həm də Talibanın nümayəndələrinin az-çox bərabər şərtlərlə iştirak etdiyi koalisiya hökumətinin yaradılmasını nəzərdə tuturdu. Beləliklə, uğurlu olarsa, Birləşmiş Ştatlar münaqişənin uğurlu həlli mənzərəsini yaratmaq və nüfuzunu itirmədən Əfqanıstandan çıxmaq imkanı əldə edəcək, Pakistan isə dəstəklədiyi Talibanı ölkəyə gətirmək üçün real imkan əldə edəcək .

Vurğulamaq lazımdır ki, pərdəarxası sövdələşmə özlüyündə Əfqanıstandakı amerikapərəst rejimin bu qədər sürətlə süqutuna səbəb ola bilməzdi. Hakimiyyətin təhvil verilməsi ilə bağlı razılaşmalar ölkə Əsas amil Amerikanın Əfqanıstanda strategiyasının dörd əsas sahədə tam iflasa uğramasıdır:

1) dövlət quruculuğu;

2) Əfqanıstan böhranının həlli;

3) sosial-iqtisadi və siyasi transformasiyaların həyata keçirilməsi;

4) ideologiya və təbliğat.

Bu sahələrin hər birinə ayrıca baxaq:də bir sıra obyektiv amillərin yaratdığı genişmiqyaslı siyasi böhranın nəticəsidir.

Dövlət quruculuğu sahəsində ABŞ və NATO ilkin olaraq Əfqanıstandakı vəziyyəti çox sadə təsəvvür edirdilər və buna görə də Əfqanıstanın daxili ziddiyyətləri və problemlərinin mürəkkəb düyününü açmaq zərurətinə sadəcə hazır deyildilər. Fakt budur ki, ölkədəki siyasi fikir ayrılıqlarının əsas dilemması hakimiyyət problemindədir. Əsas sual Əfqanıstanın gələcəyinin necə olacağıdır -

əslində qurulduğu gündən bəri olduğu kimi Puştun milli dövləti və ya şimaldakı azlıqların ən azı proporsional olaraq bərabər şəkildə resurslara və gücə sahib olduğu bir federativ dövlət olması?

ABŞ-ın təşviq etməyə çalışdığı milli nizamlanma prosesi də uğursuzluğa düçar oldu. Əvvəlcə onlar Talibanla ümumiyyətlə danışmaq istəmirdilər; daha sonra prezident Obamanın administrasiyası hakimiyyətə gəldikdən sonra amerikalılar Əfqanıstan böhranının həlli üçün yeni plan qəbul etdilər ki, bu da Talibanla danışıqlar prosesinin başlanmasını və “mötədil” nümayəndələrin iştirakı ilə koalisiya hökumətinin yaradılmasını nəzərdə tuturdu. Pakistanı Talibana dəstəyi dayandırmağa inandırmaq ümidi ilə amerikalılar bu ölkəyə maliyyə dəstəyi olaraq külli miqdarda pul ayırdılar və Əfqanıstanın gələcək strukturu ilə bağlı Pakistan rəhbərliyinin bütün şərtlərini qəbul etdilər. Beləliklə, sülh planında ilk növbədə Talibanın hakimiyyətə qayıdışında əvvəldən təkid edən Pakistanın mövqeləri və maraqları öz əksini tapıb.

ABŞ-ın təhlükəsizlik və hərbi inkişaf sahəsində strategiyası da eyni uğursuzluğa düçar oldu. ABŞ nədənsə, əvvəldən Əfqanıstan ordusunu müstəqil şəkildə irimiqyaslı hərbi əməliyyatlar aparmağa qadir olan müasir ordu deyil, polis strukturu, yəni asayişi təmin edən qüvvə kimi qurub. Bu, ilk növbədə, silahlara aiddir - Əfqanıstan ordusu amerikalı tərəfdaşlarından praktiki olaraq ağır texnika (orta tanklar və kifayət qədər ağır artilleriya) almırdı; Əfqanıstan Hərbi Hava Qüvvələri yalnız az sayda (20-25) Braziliya istehsalı olan Tukano hücum təyyarəsi və bir neçə onlarla helikopter aldı. Əfqan tərəfinin çoxsaylı müraciətlərinə baxmayaraq, ordu heç vaxt sovet dövründən qalan aviasiya və ağır texnika parkının modernləşdirilməsinə belə vəsait almayıb. Nəticədə bu gün Əfqanıstan ordusu faktiki olaraq təkbaşına və kütləvi hava dəstəyi olmadan döyüş əməliyyatları apara bilmir.

Əfqan hökuməti heç vaxt cəmiyyəti ölkənin bütün əhalisini birləşdirə biləcək milli ideya ilə təmin edə bilmədi. Öz növbəsində, Taliban rəhbərliyi son illərdə İŞİD-in metodologiyasını və yanaşmalarını əsas götürərək son dərəcə

effektiv təbliğat sistemi formalaşdıra bilib.

Ümumiyyətlə, Talibanın yeni təbliğatı bir neçə postulat və şüar üzərində qurulub: "Taliban müharibəyə və korrupsiyaya son qoymaq üçün hakimiyyətə gəldi"; "Bu gün Taliban heç də əvvəlki kimi deyil"; "Yeni cəmiyyət heç bir təbəqə və ya onun bir hissəsi seçilmədən vahid bir cəmiyyət (ümmət) şəklində təşkil olunacaq".

Geniş yayılmış korrupsiya və hökumətin səmərəsizliyi fonunda Taliban şüarları ölkənin bir çox vətəndaşları, xüsusən də ölkənin cənub, Puştun əyalətlərində daha cəlbedici olub. Şimalda təkcə hökumətin deyil, həm də korrupsiyada və konformizmdə, habelə öz icmalarının mənafeyinə xəyanətdə ittiham olunan Şimal Alyansının keçmiş liderlərinin populyarlığı kəskin şəkildə aşağı düşüb.

Bütün bunlar şimal əyalətlərinin sakinlərinin Talibana qarşı durmağa hazırlığını sarsıtdı; buradakı əhali xüsusilə Talibana rəğbət bəsləməsə də, onlar da qeyri-populyar və korrupsioner hökuməti xilas etmək üçün silaha sarılmaq istəmirdilər. Digər tərəfdən, Əfqanıstan Ordusunun (ANA) əsgər və zabitləri, prezident Kərzainin hakimiyyəti dövründən bəri, öz prezidentlərinin onları ya Talibanla barışmaz mübarizəyə çağıran, ya da onları "Taliban"a qarşı barışmaz mübarizəyə çağıran bəyanatları ilə getdikcə daha çox ideoloji cəhətdən yönünü itiriblər. Taliban lideri "əziz qardaşı". Bu vəziyyətdə hakim rejimin düşərgəsində ideoloji çaşqınlıq və çaşqınlıq artıq 2015-ci ilə qədər özünü büruzə verir, müxalifətlə sülh danışıqları getdikcə hər il daha da güclənirdi.

İdeoloji çaşqınlıq da Talibana qarşı müqavimətin təşkilində mənfi rol oynadı. Dövlət təbliğatının təsiri altında Əfqanıstan cəmiyyəti tədricən sülh prosesinə kökləndi və bu proses Talibanla razılaşma və koalisiya hökumətinin yaradılması ilə başa çatmalı idi. Nəticədə cəmiyyət yeni reallığa - sülh prosesinin dağılmasına və Talibanın hakimiyyətə gəlməsinə tamamilə hazır olmadığı ortaya çıxdı. Müvafiq olaraq, həm Şimal Alyansının keçmiş strukturları, həm də onların potensial müttəfiqləri də təəccübləndilər və buna görə də sadəcə olaraq

təşkilatlanmağa vaxtları olmadı.

Bütün bu amillər son nəticədə ABŞ qoşunlarının çıxarılmasının başlanmasından qısa müddət sonra Taliban tərəfindən hakimiyyətin belə tez və nisbətən qansız ələ keçirilməsi üçün əlverişli şərait yaratdı [76].

Sərt dini-siyasi hərəkat olan Talibanın Əfqanıstan cəmiyyətində sosial dayaqlarının güclü olması və uzunömürlülüyünün bir sıra səbəbləri vardır. Bu səbəblər Taliban hərəkatının Əfqanıstanda ilk hakimiyyətə gəlməsi dövrü ilə 2020-ci ildən sonra öz hakimiyyətini bərpa etməsi dövründə fərqliliklərə malikdir. Belə ki, hələ ilk yarandığı vaxtlarda Taliban hərəkatının ölkədəki digər siyasi və dini qruplaşmalardan əsas fərqi o idi ki, bu hərəkat cəmiyyətin sərt şəriət qaydaları ilə idarə olunmasını təbliğ edirdi. 1989-cu ildə sovet qoşunları Əfqanıstanı tərk etdikdən sonra ölkədə baş alıb gedən vətəndaş müharibəsi, hakimiyyətin qısa zaman kəsiyində müxtəlif qüvvələrin əlinə keçməsi və hərc-mərclik taliblərin hərbi-siyasi və ideoloji fəaliyyəti üçün geniş imkanlar yaratmışdı. Taliban hərəkatı bu imkanlardan istifadə edərək və bir sıra kənar aktorlardan dəstək alaraq öz rəqibləri üzərində böyük uğurlar əldə etmiş və 1996-cı ildə hakimiyyətə gəlməyə nail olmuşdu.

Taliblər Əfqanıstanda hakimiyyətə gəldikdən sonra qısa müddət ərzində ölkə ərazisinin 90%-i üzərində nəzarəti ələ almış və sərt şəriət qaydaları ilə idarə olunan rejim formalaşdırmışdılar. Verilən qərarlar sırasında televiziya, teatr, kinonun qadağan edilməsi, qadınların işləmək, 10 yaşdan yuxarı qızların isə təhsil almaq hüquqlarının ləğv olunması və s. qeyd oluna bilər. Bütün bu ifrat gerici və insan hüquqlarına zidd qərarların qəbul olunmasına baxmayaraq, Taliban hərəkatı hakimiyyətinin ilk illərində Əfqanıstan cəmiyyətində öz nüfuzunu qoruyub saxlaya bilmişdi. Bunun başlıca səbəbi ölkədə hökm sürən korrupsiya və narkotik vasitələrin ticarəti ilə mübarizə, yolların bərpası və ümumi infrastruktura nəzarət, ticarətin inkişafı üçün qismən sülh və əmin-amanlığın yaranması ilə bağlı idi və bu addımlar Taliban hökumətinin yerli əhali arasında dəstəkçilərinin sayının artmasına yol açmışdı.

Taliban hərəkatının uzun müddət əfqanlar arasında populyar olması və xalq tərəfindən geniş dəstək almasının əsas səbəbləri əfqanların sosial strukturunda və düşüncəsində dini meyillərin və yerli adət-ənənələrə bağlılığın yüksək həddə olması, ölkədə ədaləti, rifahı, sabitliyi təmin etməli olan dövlət orqanlarının institutlaşmaması, təhsillə bağlı ciddi problemlərin mövcudluğu, əhalinin savadlılıq və siyasi şüur səviyyəsinin aşağı olması, yoxsulluq, yaşayış standartlarının ağırlığı və s. idi.

Taliban hərəkatının ciddi sosial dayaqları həm də hərəkatın etnik puştunlardan təşkil olunması ilə əlaqədar idi. Çoxmillətli dövlət olan Əfqanıstanda puştunlar əsas etnik qrupdur və müstəqil əfqan dövlətçiliyinin yaradıcısıdır. Əfqanıstanda 4 əsas etnik qrup (puştun, tacik, hazara, özbək) və 21 milli azlıq yaşayır ki, bu etnik qrupların 42%-ini puştunlar təşkil edir [73].

Məhz güclü sosial dayaq, həmçinin xarici dəstək 2001-ci ildə devrildikdən sonra Taliban hərəkatı yenidən güc toplayaraq öz təsir gücünü artırmağa başladı və bu strategiya özünü doğrultdu.

2021-ci ildə ABŞ qoşunlarının Əfqanıstandan çıxarılması fonunda Taliban hərəkatının yenidən hücuma keçərək qısa vaxtda bütün Əfqanıstada nəzarəti ələ alması və hakimiyyətə keçməsindən sonra Taliban hərəkatı bildirmişdi ki, BMT Baş Assambleyasının tribunasından çıxış etmək istəyir və region, qonşu və dünya dövlətləri ilə yaxşı münasibətlərin yaradılmasını dəstəkləyir. Gündəmdə dayanan məsələ dünya dövlətlərinin Taliban hakimiyyətinin legitimliyini tanımasıdır. Məhz öz milli maraqlarını qorumaq naminə Taliban hökuməti ilə münasibət quran dövlətlər Taliban hərəkatının siyasi dayağını gücləndirmiş olurlar. Avropa dövlətlərindən Almaniya Kabildə yenidən diplomatik nümayəndəliyin açılması ehtimalını istisna etməmişdi. Burada məqsəd Əfqanıstanda stabilliyin yaranması istəyi ilə bağlıdır. Çünki 2011-ci ildə Yaxın Şərq və Şimali Afrika ölkələrində baş verən Ərəb baharı zamanı qaçqınların Avropa ölkələrinə, xüsusən də Almaniyaya üz tutması ölkədə ciddi sosial problemlər yaratmışdı və Almaniya eyni prosesin Əfqanıstan nümunəsində yenidən təkrarlanacağından ehtiyat edir. Almaniyanın

milli təhlükəsizlik maraqlarını qorumaq siyasəti Taliban hərəkatının yeni qurduğu hakimiyyətini möhkləmləndirmək işinə müsbət təsir edir.

Taliban hərəkatı Rusiya ərazisində terror təşkilatı kimi qadağan olunsa da Rusiya uzun illərdir taliblər ilə əlaqələrə malikdir. Hətta Rusiya prezidenti Taliban hərəkatının müvəqqəti hökuməti inklüziv olmasa da onunla işləmək lazımdır və yeni Kabil hökumətinin tanınması üçün mövqelər razılaşdırılmalıdır. Rusiyanın taliblərə qarşı bu cür siyasət yürütməsi Rusiyanın ekstremiz təhlükəsinə qarşı olduqca zəif olan Mərkəzi Asiya dövlətləri ilə əhatə olunması və bu problemin asan bir şəkildə Mərkəzi Asiyaya və oradan da Rusiyaya yayılmasından ehtiyat etməsi ilə əlaqədadır. Məhz bu cür yanaşma Taliban hərəkatının qurduğu yeni hakimiyyətin Rusiya tərəfindən tanınması istiqamətində ümidlərini artırır və dayağını möhkəmlədir.

Avropa İttifaqına gəldikdə, bu qurum hesab edir ki, Əfqanıstanda baş verən hadisələrə az da olsa təsir etmək imkanının yaranması üçün taliblərlə danışıqlar aparmaq lazımdır. Taliban hərəkatının "Əl-Qaidə" və İŞİD kimi terror qruplaşmalarının bu ərazilərdə möhkəmlənməsinin qarşısını almaq iqtidarında olması, həmçinin Avropa İttifaqının əfqan qaçqınlarının kütləvi şəkildə Avropaya miqrasiyasının qarşısını almaq istəyi Taliban hərəkatının yaxın gələcəkdə daha güclü bir iqtidara sahib olmasını proqnozlaşdırmağa imkan verir.

Bütün qlobal aktorlar arasında Taliban hərəkatı ilə əməkdaşlığa ən açıq ölkə olan Çinin əsas marağı sırf iqtisadi xarakter daşıyır. Belə ki, Çin Əfqanıstanın malik olduğu təbii sərvətlərin istismarında iştirak etmək və Əfqanıstanı özünün Yeni İpək Yolu layihəsinə daxil etmək istəyir. Digər tərəfdən, Çin öz ərazisində radikal dini qrupların təsirinin artmasından ehtiyat edir. Uyğur əsilli müsəlmanların məhz Taliban hərəkatı tərəfindən dəstəklənməsinin qarşısını almaq üçün Əfqanıstana böyük investisiya yatırmaq istəyən Çin həm Taliban hərəkatı ilə münasibətləri normallaşdıra, həm də onu neytrallaşdıra bilər ki, bu da Taliban hərəkatının uzun müddət hakimiyyətqə qalmasına səbəb ola biləcək amillərdən hesab edilə bilər.

ABŞ prezidenti Co Bayden administrasiyası hələ Əfqanıstanla bağlı yeni strategiya təqdim etməsə də və Taliban hərəkatının münasibətləri yaxşılaşdırmaq istəyinə heç bir reaksiya bildirməsə də ABŞ terror təşkilatlarının Əfqanıstanda kök sala biləcəyindən və oradan maneəsiz olaraq Qərb dünyasına terror hücumları planlaşdıracağından ehtiyat edir. ABŞ-ın strateji tərəfdaşı Pakistan isə uzun illərdir ki, Taliban hərəkatını dəstəkləyir. Əfqanıstan hökumətinin taliblərin əlinə keçməsini alqışlayan Pakistan bunu Əfqanıstanın azad edilməsi adlandırsa da Pakistanın əsas marağı əfqan qaçqınlarını qəbul etmək istəməməsi ilə əlaqədardır [77].

Beləliklə, Əfqanıstan hakimiyyətində mövcud olan yüksək səviyyəli korrupsiya, eləcə də prezident Əşrəf Qaninin bir etnik qrupa digərindən daha çox üstünlük verərək etnik ayrı-seçkiliyə və nifrətə yol açması, dövlətin rəhbər vəzifələrinə uyğun olmayan və bacarıqsız şəxsləri təyin etməsi Taliban hərəkatının Kabili ələ keçirib öz hökumətini qurmasını şərtləndirən amillər sırasında sadalana bilər. Bundan başqa, taliblərin öz hücum taktikasını dəyişərək şimaldan, yəni heç kimin gözləmədiyi yerdən hücuma keçməsi, Mərkəzi Asiya ekstremist qruplarının Taliban dəstələrinə qoşularaq döyüşlərdə iştirak etməsi həm Əfqanıstan ordusunda, həm də ümumilikdə əfqan xalqı arasında ruh düşkünlüyü yaratmışdı. Həmçinin, Qatarda sülh danışıqlarını davam etdirən Taliban hərəkatı ikili oyun oynayaraq həm Dohada ABŞ nümayəndələrinin iştirak etdiyi danışıqlarda özlərini Əfqanıstan probleminin siyasi yolla həlli tərəfdarı kimi təqdim edərək diplomatik danışıqlar aparır, digər tərəfdən də Taliban hərbi komandirləri döyüş meydanında əməliyyatlar apararaq şəhərlərə hücum edirdilər. ABŞ və Avropa dövlətləri öz milli siyasi və təhlükəsizlik maraqlarından çıxış edərək əvvəllər düşmən elan etdikləri və terror təşkilatı adlandırdıqları Taliban hərəkatı ilə danışıqlar aparıb yumşaq mövqe nümayiş etdirəcəklər, bir o qədər də bu hərəkatın Əfqanıstanda mövqeyi möhkəmlənəcək və qurduğu hakimiyyətin legitimliyi məsələsini mütəmadi olaraq gündəmə gətirəcək. Təbii ki, bu da daha uzun zamanın keçməsi və Taliban hərəkatının siyasi ömrünün uzun olmasına yol açacaq [82].

# NƏTİCƏ

Əfqanıstanın son 40 ildəki tarixi tədqiq edilərkən müxtəlif nəticələrəldə edilir, amma bu nəticələr onu göstərir ki, sadə əfqan xalqı bütün bu dövr ərzində böyük əzab-əziyyətə məruz qalmış və və hələ də qalmaqdadır. BMT Nizamnaməsinin müddəalarında, beynəlxalq hüquqda və beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilmiş normalarda vurğulanan insan hüquq və azadlıqlarının kobud şəkildə pozulduğu Əfqanıstanda fundamentalist Taliban hərəkatının hakimiyyəti yenidən ələ keçirməsi təkcə Əfqanıstan üçün deyil, ümumilikə Mərkəzi Asiya, Cənubi və Cənub-Qəri Asiya regionlarının təhlükəsizlik məsələlərini gündəmə gətirir. Məsələnin problematik tərəfi ondan ibarətdir ki, qlobal aktorlar Əfqanıstanın taleyini qısa müddətli həll yolları təklif edən "realpolitik" ilə həll etməyə çalışırlar. Qərb dövlətləri Əfqanıstanla bağlı götürdükləri öhdəlikləri yerinə yetirilməkdən boyun qaçırdıqca Taliban hərəkatı ilə danışıqlar masasına əyləşib hansısa razılıq bağlamaq istəyi daha da güclənir. Bu isə taliblərin siyasi hakimiyyətinin uzun müddət davam edəcəyinə işarə edir.

Taliban hərəkatı ilə danışıqların aparılması və müəyyən razılıqların əldə olunması təkcə taliblərin mövqeyini gücləndirməyəcək, eyni zamanda illər öncə Taliban hərəkatının hakimiyyətdə olduğu dövrdə qoyduğu qeyri-bəşəri qaydalardan əziyyət çəkən qadınlar, etnik və dini azlıqlar kimi qruplar yenidən təhdidlərlə üz-üzə qalacaqdır ki, bu da Əfqanıstandan qaçqın axınının sürətlənəcəyini proqnozlaşdırmağa imkan verir.

Baxmayaraq ki, Taliban hərəkatının Dohada diplomatik danışıqlar aparan nümayəndələri özlərini daha mötədil və mülayim göstərir, bu isə heç də onların öz ifrat fundamental ideologiyasından uzaqlaşacağı anlamına gəlmir.

Taliban hərəkatının Əfqanıstanda öz mövqeyini gücləndirməsi və de-fakto legitim hakimiyyət kimi tanınması regional təhlükəsizlik üçün böyük təhdidlər yaradır. Çünki, dini qruplaşmanın bir ölkə ərazisində möhkəmlənərək hakimiyyəti ələ keçirməsi və dövlətin xarici və daxili siyasətində söz sahibi olması digər region dövlətlərində mövcud olan ekstremist qruplaşmalarda anoloji davranış sərgiləmək

istəyini yarada bilər ki, bu da domino effekti yarada bilər. Çünki hazırki vəziyyətdə, yəni ABŞ qoşunlarının Əfqanıstanı tərk etməsi onlarda belə bir fikir formalaşdırır ki, dünyanın ən güclü dövləti olan ABŞ Taliban hərəkatı qarşısında gücsüzlük nümayiş etdirərək ölkəni tərk edir.

ABŞ və Rusiya Taliban hərəkatı ilə danışıqlar aparmasını Əfqanıstanda sülhün və sabitliyin bərqərar olması üçün atılan addımlar kimi qələmə verir. Amma coğrafi mövqeyi və təbii sərvətləri baxımından Əfqanıstan tarixən güclü dövlətlərin diqqətini cəlb edərək müasir beynəlxalq münasibətlərdə böyük geosiyasi əhəmiyyətli ölkə hesab edilir. Ötən əsrlərdə Böyük Britaniya Əfqanıstanda üç dəfə məğlubiyyətlə üzləşmiş, dünyanın böyük güclərindən biri olan Sovet İttifaqı burada on ildən çox müharibə aparsa da son nəticədə heç nə əldə edə bilmədən qoşunlarını geri çəkməyə məcbur olmuşdur. 20 il Əfqanıstanda qoşun saxlayan ABŞ-da 2021-ci ildə qoşunlarını bu ölkədən çıxarmaq qərarı vermişdir.

ABŞ, Rusiya və Çin siyasi və iqtisadi taktikalardan istifadə edərək Əfqanıstanda geosiyasi mövqelərini qoruyub saxlamağa və möhkəmləndirməyə çalışırlar. Onların Əfqanıstanla bağlı siyasətinin əsas istiqamətlərindən biri milli təhlükəsizlik və müdafiə maraqları ilə əlaqədardır. Çünki Əfqanıstanda möhkəm və sabit mövqeyə malik olan dövlət qonşu ölkələrdə, o cümlədən Mərkəzi Asiya, İran, Pakistan və hətta Hindistan kimi ölkələrdə öz mövqeyini və təsirini gücləndirə biləcək.

Rusiyanın Taliban hərəkatının nümayəndələri ilə apardığı danışıqlar və taliblərlə əməkdaşlıqda əsas məqsədi həm də regional təhlükəsizliyin təmin olunması ilə əlaqədardır. Belə ki, Rusiya İŞİD-in geniş təsir imkanlarına malik olduğu, Rusiya ilə həmsərhəd olan Mərkəzi Asiya ölkələrinin ərazisinə yayılmasının qarşısını almaq üçün Taliban hərəkatı əsas mübarizə qabiliyyətli qüvvə kimi görünür. ABŞ başda olmaqla beynəlxalq ictimaiyyət Taliban hərəkatı ilə sülh danışıqları aparılmasını dəstəkləyir və Rusiya da bu dövlətlər sırasındadır. Rusiya hesab edir ki, Taliban hərəkatı Əfqanıstanda hakimiyyətdə olduğu

müddətdə İŞİD-in orada yayılması təhlükəsinin qarşısını almaq iqtidarındadır. Taliban hərəkatı ilə İŞİD arasında münaqişə şiddətləndikcə Rusiya fürsətdən istifadə edərək öz maraqlarını reallaşdırır.

Beləliklə, Pakistan, İran, ABŞ və Rusiya kimi ölkələrdən dəstək alan Taliban hərəkatının Əfqanıstanda hakimiyyətə qayıtması ölkəyə heç də sülh gətirməyəcək, əksinə, onu yenidən qlobal aktorlar arasında gərgin rəqabət meydanına çevrilməsinə yol açacaq.

Eyni zamanda, regionda mövcud olan dini ekstremist qruplaşmaların da canlanmasına səbəb ola bilər, xüsusən də Mərkəzi Asiyada Özbəkistan İslam Hərəkatı, Türküstan İslam Hərəkatı kimi islami qüvvələrin yenidən canlanmasına şərait yarada bilər. Əfqanıstanın şimalında bu dini silahlı qruplaşmaların nümayəndələri fəaliyyət göstərir. Taliban hərəkatı ilə aparılan danışıqlarda əsas şərt kimi bu cür dini ekstremist qruplaşmalarla əməkdaşlığın qadağan edilməsi və dayandırılması şərti irəli sürülməlidir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

***Azərbaycan dilində***

1. Məhəmmədi M. “Əfqanıstan: Sovet işğalından Amerika müdaxiləsinə”. Bakı, Elm, 2017, 220 səh.

2. Məmmədli A. “Taliban hakimiyyəti illərində İran-Əfqanıstan əlaqələri”. Elm, 145 səh.

3. Məmmədli M. “Əfqanıstan: bitməyən müharibələr, böhranlar ölkəsi”. Bakı, Qanun, Avqust 2021, 256 səh.

***Rus dilində***

4. Арчаков М.К. Природа и корни идеологических установок движения «Талибан», Общество: политика, экономика, право, 2018, № 5, 17-19 стр.

5. Афганистан: Справочник, М., 2000, 33-35 стр.

6. Белокреницкий В.Я., Сикоев Р.Р. Движение Талибан и перспективы Афганистана и Пакистана, Москва, 2014, 233-235 стр.

7. Владимир С. Россия - США: партнеры или соперники? Независимое военное обозрение, Москва, 2001, 74-78 стр.

8. Ганковский Ю. История Афганистана с древнейших времен до наших дней. Москва. 2000, стр.56-145.

9. Давыдов А.Д. Режим талибов в Афганистане: жёсткая исламизация, Афганистан: война и проблемы мира, М., 1998, стр.41-48.

10. Карин Е.Т. «Последствия антитерроистической операции США и Афганистане для Центральной Азии», Внешняя политика Казахстана: выработка новых приоритетов. Алматы, 2002, 5-10 стр.

11. Катов И.Е. Социальные аспекты племенной структуры пуштунов. Афганистан: история, экономика, культура. М., 1989, 51-62 стр.

12. Князев А. Афганский кризис и безопасность Центральной Азии (XIX- начало XXI в.). Душанбе. 2004, 152-157 стр.

13. Крыжко Е.В., Щевелев С.С. Из истории движения «Талибан» в Афганистане, Москва, 2007, 277-279 стр.

14. Лалетин Ю.П. Глобальное измерение регионального конфликта (на примере Афганистана), Москва, 2008, 141-142 стр.

15. Марсден П. Талибан. Война и религия в Афганистане, М., 2002,.95-97 стр.

16. Мейли У. Афганистан с точки зрения истории и географии, Москва, 2011, 248-250 стр.

17. Пахомов Е. Афганистан: Очередные задачи талибской власти, Итоги. 1998. № 33, 25 августа. 38-40 стр.

18. Российская газета. 1992, 9 сентября, 7-11 стр.

19. Севергин О. Бандитский интернационал. Мегаполис-Континент, М., 2000, № 005, 46-48 стр.

20. Сикоев Р. Политический облик Афганской диаспоры, Азия и Африка сегодня, М., 1999, № 3, 24-33 стр.

21. Сикоев Р. Талибы (религиозно-политический портрет), М.,2002, 119-120 стр.

22. Сикоев Р. Шариатсое законодательство в действии, Азия и Африка сегодня, М., 2000, № 3, 27-29 стр.

23. Сикоев Р.Р. Талибы (религиозно-политический портрет), М., 2002, 119-120 стр.

24. Сыздыкова Ж.С. “Талибы: новый имидж со старым содержанием”, 2021, 355 стр.

25. Совершенно секретно, 2002, № 1, 16-18 стр.

26. Сушенцов А.А. Очерки политики США в региональных конфликтах 2000-х годов, Москва, 2013, 245-247 стр.

27. Умнов А. Карзаю есть на кого равняться, Независимая газета, 2002, 27-30 стр.

***İngilis dilində***

28. Abdul S. Pakistan’s Foreign Policy 1947-2005, Oxford University Press, Karachi, 2007, 227 p.

29. Abdulkader S. Organizations at War in Afghanistan and Beyond, Cornell University Press, Ithaca, 2008, 119-172 p.

30. Ambassador K.W. Eikenberry, ‘COIN strategy: civilian concerns’, US Department of State Cable No. Kabul 03572, Kabul, November 2009, 114 p.

31. Andrew L. Out of Afghanistan: A Realist View, 2021, 214 p.

32. Ashley J.T. Reconciling with the Taliban? Toward an Alternative Grand Strategy in Afghanistan, Carnegie Endowment for International Peace, Washington, DC, 2009, 289 p.

33. Barfield T. Afghanistan: A Cultural and Political History, Princeton University Press, Princeton, 2010, 328 p.

34. BBC, *Summary of World Broadcasts*, FE/1461/B/1, 17 August 1992.

35. Bob W. Obama’s War, Simon & Schuster, New York, 2010, 367 p.

36. Burns R. ‘Mullen: Afghanistan isn’t top priority’, in Washington Post, 11 December 2007, 223 p.

37. Chandrasekaran R. ‘Karzai seeks to limit role of U.S. corruption investigators’, in Washington Post, 9 September 2010, 302 p.

38. Cordovez D., Harrison S.S. out of Afganistan: The Inside Story of the Soviet Withdrawal, NewYork, 1995, 68 p.

39. Corwin P. Doomed in Afghanistan: A UN Officer’s Memoir of the Fall of Kabul and Najibullah’s Failed Escape, 1992, Rutgers University Press, New Brunswick, NJ, 2003, 239 p.

40. Ganguly R. Kin State Intervention in Ethnic Conflicts: Lessons from South Asia, SAGE Publications, New Delhi, 1998, 162-192 p.

41. Grasselli G. British and American Responses to the Soviet Invasion of Afghanistan, Dartmouth Publishing Co., Aldershot, 1996, 121 p.

42. Harpviken K.B. Political Mobilization among the Hazara of Afghanistan: 1978-1992, Report No. 9, Department of Sociology, University of Oslo, Oslo, 113 p.

43. Human Rights Watch, 'Troops in Contact': Airstrikes and Civilian Deaths in Afghanistan, Human Rights Watch, New York, 2008, 224 p.

44. Human Rights Watch, Blood-stained Hands: Past Atrocities in Kabul and Afghanistan's Legacy of Impunity, Human Rights Watch, New York, 2005, 214 p.

45. Human Rights Watch, The 'Ten Dollar' Talib and Women's Rights, Human Rights Watch, New York, 2010, 101 p.

46. Iftikhar M.S. Afghanistan: The Taliban Years, Bennett & Bloom, London, 2006, 45 p.

47. In International Herald Tribune, 22 April 1992, 2 p.

48. Integrity Watch Afghanistan, Afghan Perceptions and Experiences of Corruption: A National Survey 2010, Integrity Watch Afghanistan, Kabul, July 2010, 10 p.

49. Jason A. Miller. The Fall of Afghanistan, 2021, 254 p.

50. Khalidi N.A. 'Afghanistan: demographic consequences of war, 1978-1987', in Central Asian Survey, 1991, Vol.10, p.101-126.

51. Khan F. The Afghan Conundrum Taliban's Takeover and the Way Forward. 2021, 358 p.

52. Kuehn F. Taliban history of war and peace in Afghanistan. 2018, 65 p.

53. Maley W. 'Pakistan-Afghanistan relations', in Michael Clarke and Ashutosh Misra (eds), Pakistan's Stability Paradox, Routledge, New York, 2011, 245 p.

54. Maley W. 'The "war against terrorism" in South Asia', in Contemporary South Asia, Vol. 12, June 2003, 214 p.

55. Maley W. Rescuing Afghanistan, Hurst & Co., London, 2006, 128 p.

56. Maley W. The Afghanistan Wars, Palgrave Macmillan, New York, 2009, 52-55 p.

57. Metcalf B.D. Islamic Revival in British India: Deoband, 1860-1900, Princeton, New Jersey, 1982, 207 p.

58. Murshed S.I. Afghanistan: The Taliban Years, Bennett & Bloom, London, 2006, 45 p.

59. Olivier R. Islam and Resistance in Afghanistan, Cambridge University Press, Cambridge, 1990, 98-148 p.

60. Peters G. Seeds of Terror: How Heroin is Bankrolling the Taliban and Al Qaeda, Thomas Dunne Books, New York, 2009, 229 p.

61. Rashid A. Taliban. Islam, Oil and the New Great Game in Central Asia, L., N.Y., 2000, 19-97 p.

62. Rashid A. Taliban: Islam, Oil and the New Great Game in Central Asia, N.Y., I.B. Tauris Publishers, 2002, 97 p.

63. Rennie R. Sudhindra Sharma, and Pawan Sen, Afghanistan in 2009, A Survey of the Afghan People, The Asia Foundation, Kabul, 2009, 43-100 p.

64. Roy O. Islam and Resistance in Afghanistan, Cambridge University Press, Cambridge, 1990, 98-148 p.

65. Rupert C.C. 'One massacre that didn't grab the world's attention', in International Herald Tribune,7 August 1999, 183 p.

66. Sattar A. Pakistan's Foreign Policy 1947-2005, Oxford University Press, Karachi, 2007, 227 p.

67. Schweitzer Y., Shay S. The Globalization of Terror: The Challenge of Al-Qaida and the Response of the International Community, New Brunswick and London, Transaction Publishers, 2003, 22 p.

68. Shah T. and Gall C. 'Afghan Rebels Find Aid in Pakistan, Musharraf Admits', in The New York Times, 13 August 2007, 124 p.

69. Terry F. Condemned to Repeat? The Paradox of Humanitarian Action, Cornell University Press, Ithaca, 2002, 55-82 p.

70. The Country Report. Pakistan, Afghanistan. London, 1st Quarter 1987, 26 p.

71. U.S. Senate Committee on Foreign Relations, Testimony on the Situation in Afghanistan, Barnett R. Rubin, Director, Center for Preventive Action, Council on Foreign Relations, October 8, 1998, 78-89 p.

72. Whit M. (ed.), The Rule of Law in Afghanistan: Missing in Inaction, Cambridge University Press, Cambridge, 2010, 125 p.

73. William M. The Afghanistan Wars, Palgrave Macmillan, New York, 2009, 52-55 p.

74. Zahab M.A. and Roy O. Islamist Networks: The Afghan-Pakistan Connection, Hurst & Co., London, 2004, 53-57 p.

***İnternet resursları***

75. http://www.ieee.es/en/Galerias/fichero/docs_analisis/2011/DIEEEA12-2011_Geopolitica_AFganistan_GBBallesteros_ENGLISH.pdf?fbclid=IwAR32W5DUTiDXtRdBeWuiienes91QtXEqwKrSwET_PJYjOfyIiBbjEJsCRQ

76. https://pajhwok.com/2018/06/22/15-members-uprising-force-killed-taliban-attacks/

77. https://ria.ru/20170815/1500383607.html

78. https://ria.ru/20211204/es-1762174255.html